AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

24 MAY 2018-ci il CÜMƏ AXŞAMI № 115 (6148) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" beynəlxalq konfransının iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi ürəkdən salamlayır, "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" mövzusunda beynəlxalq konfransın işə başlaması münasibətilə təbrik edirəm.

Qafqaz dövlətləri arasında münasibətlərin hərtərəfli tədqiqi, obyektiv elmi nəticələrin çıxarılması və geniş yayılması mühüm praktiki əhəmiyyət kəsb edir. Bu bölgə əsrlərdən bəri müxtəlif xalqların və mədəniyyətlərin qaynayıb qarışdığı, özünəməxsus zəngin mədəni irsə və ənənələrə malik nadir bir məkandır. Strateji əhəmiyyətinə görə hər zaman müxtəlif güc mərkəzlərinin maraq dairəsində olması regionda dövlətlərarası əlaqələrə və xalqlar arasında münasibətlərin xarakterinə xeyli dərəcədə təsir göstərmişdir. Bir əsr əvvəl yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin və digər qonşu respublikaların tarixi, habelə müasir müstəqillik dövrünün təcrübəsi göstərir ki, Qafqaz xalqlarının istiqlaliyyəti, əmin-amanlığı və rifahı, ilk növbədə, onların qarşılıqlı hörmətə və ortaq maraqlara əsaslanan əməkdaşlığından asılıdır. Təəssüf ki, ötən əsrin əvvəllərində olduğu kimi, indiki Ermənistan dövləti də qonşu ölkələr, xüsusilə Azərbaycan hesabına öz ərazilərini genişləndirmək məqsədilə təcavüzkar siyasət yürüdür, işğal, soyqırımı və etnik təmizləmələr həyata keçirir. Bu isə bölgədə sülhə, sabitliyə və ölkələrin tərəqqisinə əngəl yaradır.

Azərbaycanın və dünyanın tanınmış elmi mərkəzlərini təmsil edən 200-dək tədqiqatçının iştirakı ilə keçirilən belə beynəlxalq konfranslar tarixi təcrübəni, geosiyasi prosesləri öyrənməklə nəticələri dərindən qiymətləndirməyə, habelə müvafiq elmi-tədqiqat institutları və mütəxəssislər arasında ikitərəfli əməkdaşlığın qurulmasına və inkişafına kömək edir. Şübhə yoxdur ki, Azərbaycan bundan sonra da müxtəlif ölkələrin qafqazşünas alimlərinin qarşılıqlı əlaqələrinin genişləndirilməsinə öz töhfəsini əsirgəməyəcəkdir.

Ümidvaram ki, konfrans çərçivəsində aparacağınız müzakirələr, irəli sürəcəyiniz tövsiyə və təkliflər qafqazşünaslığın aktual problemlərinin həllində əhəmiyyətli addım olacaq, beynəlxalq elmi əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsinə və bütövlükdə regionda sülhün, əmin-amanlığın möhkəmləndirilməsinə təkan verəcəkdir.

Hamınıza bu yolda böyük nailiyyətlər, şəxsi həyatınızda möhkəm cansağlığı və səadət arzulayıram.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 22 may 2018-ci il.**

## "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununu "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 834-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 348; 1999, N 11, maddə 609; 2000, N 11, maddə 776; 2001, N 9, maddə 576, N 12, maddələr 733, 736; 2002, N 12, maddə 706; 2004, N 7, maddə 505, N 12, maddə 976; 2005, N 1, maddə 2, N 12, maddə 1082; 2006, N 11, maddə 923, N 12, maddə 1018; 2007, N 1, maddə 4, N 12, maddə 1193; 2008, N 2, maddə 49, N 4, maddə 254, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 12, maddə 970; 2010, N 4, maddə 276, N 11, maddə 949; 2011, N 10, maddə 883; 2013, N 11, maddə 1284, N 12, maddə 1487; 2014, N 10, maddə 1171; 2016, N 4, maddə 657, N 6, maddə 971; 2017, N 3, maddə 336, N 7, maddə 1279, Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 976-VQD nömrəli Qanunu) 15-ci maddəsinin birinci hissəsinin altıncı abzasında "aspirantlara (magistrlərə)" sözləri "doktorantlara və magistrlərə" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 may 2018-ci il.**

## "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1141-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1141-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 22 may 2018-ci il.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik etməkdən böyük şərəf və məmnunluq hissi duyuram. Bu xoş fürsətdən istifadə edərək Civitatis Forumu adından və şəxsən öz adımdan Sizə ölkənizin inkişafı naminə ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm.

Dünya ölkələri və sivilizasiyalar arasında sülhü, dialoqu və əməkdaşlığı təşviq edən Civitatis Forumu Sizin beynəlxalq aləmdə sülhün və əmin-amanlığın möhkəmləndirilməsi ilə bağlı fikirlərinizi yüksək qiymətləndirir.

Sizə möhkəm cansağlığı və nəcib fəaliyyətinizdə uğurlar arzulayıram.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

**Jan Mortier**
**Böyük Britaniyadan Civitatis Forumunun sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

İcazə verin, Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edim. UNESCO-nun 2009-cu ildən 2017-ci ilədək baş direktoru vəzifəsində çalışdığım dövrdə Azərbaycana etdiyim səfərlər və Sizin şəxsən təşkilata verdiyiniz dəstəklə bağlı məndə xoş xatirələr qalıb. 2015-ci ildə 70 illik yubileyini qeyd edən UNESCO-nun Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda Sizin iştirakınız təşkilatın qlobal sülhə və BMT-nin 2030 Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün mühüm rolunu təsdiqləyən güclü mesaj idi.

Mən vəzifədə olduğum dövrdə Azərbaycan və UNESCO arasındakı məhsuldar əməkdaşlığı, xüsusən də özümün başlanğıcdan iştirak etdiyim dörd Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsini xüsusilə vurğulamaq və buna görə bir daha səmimi minnətdarlığımı bildirmək istərdim. Bütün bunlar mübadilə, elm və sənət məkanı olan Azərbaycanın qədim İpək Yolunda uzun tarixini əks etdirir. Sözügedən forumlar nəticəsində yaranmış "Bakı Prosesi" qeyri-sabitlik və artan dözümsüzlüyə qarşı sülh və qarşılıqlı anlaşmanın axtarışında mühüm bir mərhələyə çevrilmişdir.

Mən Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun şifahi ənənələr və musiqi ənənələri sahəsində xoşməramlı səfiri xanım Mehriban Əliyevaya təşkilatın bir çox təşəbbüslərinə verdiyi dəstəyə görə xüsusilə minnətdaram.

Azərbaycanın 2013-cü ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına ev sahibliyi etməsi, irs və mədəniyyət sahələrində çoxsaylı fəaliyyətləri ümumi fikrin parlaq təzahürüdür ki, təhsil, mədəniyyət və mədəniyyətlərarası dialoq insan kapitalının və sülhün təməlidir.

Sizə və Azərbaycan xalqına uğurlar və firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

**İrina Bokova**
**UNESCO-nun baş direktoru**
**(2009-2017)**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Rusiya Federasiyası Hökuməti adından və şəxsən öz adımdan Sizi səmimi qəlbdən təbrik edirəm.

Sizin inamlı qələbəniz Azərbaycanın dinamik sosial-iqtisadi inkişafına, beynəlxalq arenada nüfuzunun artmasına yönəlmiş kursunuza vətəndaşların geniş dəstəyinin və etibarının sübutudur.

Dostluq, mehriban qonşuluq və tərəfdaşlıq prinsiplərinə əsaslanan Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə verdiyiniz əhəmiyyətli töhfəni xüsusilə qeyd etmək istərdim. Əminəm ki, ikitərəfli əməkdaşlığın bundan sonra da hərtərəfli genişləndirilməsi, müxtəlif sahələrdə birgə perspektiv layihələrin həyata keçirilməsi Rusiya və Azərbaycanın uzunmüddətli maraqlarına tam şəkildə cavab verir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, firavanlıq və ali dövləti vəzifənizdə yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

**Dmitri Medvedev**
**Rusiya Federasiyası Hökumətinin sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Müasir Azərbaycanın sabit sosial-iqtisadi inkişafı Sizin ardıcıl surətdə həyata keçirdiyiniz, müstəqilliyin və suverenliyin möhkəmlənməsinə yönəlmiş dövlət xəttinin nəticəsidir.

Ürəkdən sevinirəm ki, Belarus-Azərbaycan əməkdaşlığı həm xalqlarımız arasında tarixən formalaşmış dostluq münasibətləri ilə, həm də ölkələrimizin strateji tərəfdaşlığı dərinləşdirməyə fəal səy göstərməsi ilə səciyyəvidir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar və tükənməz enerji, Azərbaycan vətəndaşlarına isə əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**Aleksandr Lukaşenko**
**Belarus Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Dost ölkənizin milli bayramı - Respublika Gününün ildönümü münasibətilə Sizi səmimi qəlbdən təbrik etməkdən məmnunluq duyur, xalqınızın ümidlərini və istəklərini həyata keçirməkdə Sizə davamlı uğurlar arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, bütün sahələrdə yaxşı əlaqələrimizin möhkəmləndirilməsi və dost ölkələrimizin maraqlarına uyğun şəkildə təşviq edilməsi istəyində olduğumu əminliklə bildirmək istərdim.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost xalqınıza tərəqqi və rifah arzu edirəm.

*Böyük hörmət və ehtiramla,*

**Əbdülfəttah əs-Sisi**
**Misir Ərəb Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə və Sizin şəxsinizdə bütün qardaş Azərbaycan xalqına Türkmənistan xalqı və hökuməti adından, şəxsən öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Türkmənistanda Azərbaycan Respublikası ilə hüquq bərabərliyi, qarşılıqlı səmərə, qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan münasibətləri yüksək qiymətləndiririk. Əminəm ki, qardaş ölkələrimiz arasında yaranmış əməkdaşlığın və qarşılıqlı anlaşmanın yüksək səviyyəsi xalqlarımızın rifahı naminə Türkmənistan-Azərbaycan ikitərəfli münasibətlərinin bundan sonra da durmadan inkişaf etməsi və möhkəmlənməsi üçün etibarlı təməl olacaq.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, şəxsi səadət və firavanlıq, qardaş Azərbaycan xalqına sülh, tərəqqi və əmin-amanlıq diləyirəm.

*Dərin hörmətlə,*

**Qurbanqulu Berdiməhəmmədov**
**Türkmənistan Prezidenti**

# SƏMİMİ TƏBRİKLƏR

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Əziz Qardaşım.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə və Sizin simanızda bütün Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Qardaş Azərbaycanın bütün sahələrdə qazandığı böyük uğurlar və beynəlxalq arenada əldə etdiyi nüfuzlu mövqe Türkiyə üçün də qürur mənbəyidir. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü qeyd edildiyinə görə xüsusi önəm daşıyan 2018-ci ildə ölkənizi regionun lider dövlətlərindən biri kimi görmək bizi həddən artıq sevindirir. Uzaqgörən liderliyiniz sayəsində Azərbaycanın bu nailiyyətlərini artıraraq davam etdirəcəyinə inamımız qətidir.

Qısa bir müddətdə strateji səviyyəyə çatan və istər aramızdakı həmrəylik ruhu, istərsə də konkret əməkdaşlığımız baxımından dünyaya nümunə olan münasibətlərimizin daha da güclənməsi istiqamətində qətiyyətli olduğumuzu bir daha vurğulamaq istəyirəm.

Fürsətdən istifadə edərək, Zati-alinizə cansağlığı və xoşbəxtlik, dost və qardaş Azərbaycan xalqına əmin-amanlıq və rifah diləklərimi bir daha ifadə edirəm.

*Hörmətlə,*

**Rəcəb Tayyib Ərdoğan**
**Türkiyə Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə Sizi Ukrayna xalqı adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Düz yüz il əvvəl Azərbaycan xalqı müsəlman Şərqində birinci olaraq demokratik inkişaf modelini seçmişdir. Müasir Azərbaycan Respublikası Sizin rəhbərliyiniz ilə qədim dövlətçilik ənənələrinə sadiqlik nümayiş etdirir və inkişaf edən ölkənin gələcək yüksəlişi yolunda inamlı addımlar atır.

Müstəqilliyinin bərpa edildiyi andan Azərbaycan ardıcıl və prinsipial xarici siyasət aparır. Şübhəsiz ki, bu, Bakının dünya arenasında beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə möhkəmlənməsinə yardım edir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində bərpası məsələsində Ukraynanın mövqeyinin dəyişməz olduğunu bir daha təsdiq etmək istərdim. Həmçinin Ukraynanın ərazi bütövlüyünün dəstəklənməsi məsələsində Azərbaycanın dəyişməz mövqeyini yüksək qiymətləndiririk.

Əminəm ki, dövlətlərimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin praktiki məzmunla zənginləşdirilməsi bütün əsas sahələrdə əməkdaşlığın intensivləşdirilməsi məqsədilə hərtərəfli dialoqun qarşılıqlı olaraq dərinləşdirilməsini təsdiq edir.

Bu xoş fürsətdən istifadə edərək Sizi münasib bildiyiniz vaxtda Ukraynaya bir daha rəsmi səfərə dəvət edirəm.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, tükənməz enerji, bütün plan və təşəbbüslərinizdə nailiyyətlər, dost Azərbaycan xalqına isə sülh, birlik və əmin-amanlıq arzu edirəm.

*Hörmətlə,*

**Petro Poroşenko**
**Ukraynanın Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi qəlbdən təbriklərimi çatdırır, rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**Filip**
**Belçikalıların Kralı**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Ölkənizin milli bayramı - Respublika Gününün yubiley ildönümü münasibətilə böyük məmnuniyyətlə Sizə və bütün dost Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Bu əlamətdar hadisə mənə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, qardaş Azərbaycan xalqına firavanlıq, sülh və tərəqqi arzu etmək imkanı verir.

Müasir Azərbaycan özünün sosial-iqtisadi və siyasi inkişafında sanballı uğurlara nail olub. Ölkəniz beynəlxalq arenada layiqli nüfuz sahibidir. Biz Tacikistanda səmimi dostlar kimi Azərbaycanın nailiyyətlərinə sevinirik.

Sevindirici haldır ki, möhkəm tarixi dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan Tacikistan-Azərbaycan münasibətləri durmadan inkişaf edir. Biz bu münasibətləri Sizinlə birlikdə qətiyyətlə zamanın reallıqlarına uyğun yeni məzmunla zənginləşdirmək əzmindəyik.

Əminliyimi ifadə edirəm ki, qarşıdakı yüksək səviyyəli görüşlərimiz qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafına və möhkəmlənməsinə yeni təkan verəcək.

*Hörmətlə,*

**Emoməli Rəhmon**
**Tacikistan Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan Respublikası müstəqillik illərində ölkənin sosial-iqtisadi inkişafına yönəlmiş islahatların aparılmasında sanballı uğurlar qazanıb.

Əminəm ki, ənənəvi dostluğa və qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan qardaş Qırğızıstan-Azərbaycan münasibətləri bundan sonra da durmadan möhkəmlənəcək və xalqlarımızın rifahı naminə inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, firavanlıq, ali dövləti fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına sülh və tərəqqi arzu edirəm.

*Hörmətlə,*

**Sooronbay Jeenbekov**
**Qırğız Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə və xalqınıza BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionunun bütün heyəti adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram.

Fürsətdən istifadə edərək, mən müsəlman Şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm.

Cəmi 23 ay mövcud olmasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirmiş, Azərbaycanın müstəqillik və dövlətçilik tarixində müstəsna iz buraxmışdır.

Azərbaycanın uzunmüddətli və etibarlı tərəfdaşı kimi BP şirkəti ölkənin zəngin mədəni irsini, milli dəyərlərini təbliğ edən təşəbbüs və fəaliyyətləri həmişə dəstəkləmişdir. BP şirkəti olaraq biz Cümhuriyyətin 100 illiyinin bayram edilməsinə qoşulmaqdan və xalqın qürur hissini paylaşmaqdan şərəf duyuruq.

Bu möhtəşəm yubileylə bağlı olaraq, biz Şərqin ilk demokratik respublikasına həsr edilmiş "Cümhuriyyətin qurucuları" adlı tədqiqat əsərlərinin, eləcə də "Son iclas" adlı bədii-sənədli filmin ərsəyə gəlməsinə töhfə vermək imkanımızdan böyük iftixar hissi duyuruq.

Cənab Prezident, bu əlamətdar bayram münasibətilə Sizi bir daha təbrik edir, Zati-alinizə cansağlığı və Azərbaycan xalqının davamlı rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**Qəri Counz**
**BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti**

*Əli HƏSƏNOV:*

## "Mən çox istərdim ki, hər bir azərbaycanlı milli mənsubiyyətini itirən "məşhur ssenarist"ə münasibət bildirsin"



**Tanınmış kinorejissor Ayaz Salayev nəinki milli mənsubiyyətini, hətta insani keyfiyyətlərini də itirən, Azərbaycan xalqını daim aşağılamağa çalışan Rüstəm İbrahimbəyovun ssenari müəllifi olduğu "Qafqaz üçlüyü" haqqında "Bakinski Raboçi" qəzetində geniş tənqidi məqalə ilə çıxış edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Facebook səhifəsində məqalə ilə bağlı aşağıdakı fikirlərini yazıb: "Mən çox istərdim ki, hər bir azərbaycanlı bu yazı ilə tanış olsun və təkcə milli hisslərini, milli mənsubiyyətini, milli dəyərlərini deyil, həm də adi insani keyfiyyətlərini itirərək haqqı, ədaləti və reallığı danan bu "məşhur ssenarist"ə münasibət bildirsin".

Əli Həsənov film haqqında yazdığı məqalədə əsl vətəndaşlıq mövqeyi nümayiş etdirdiyinə görə kinorejissor Ayaz Salayevə dərin təşəkkürünü bildirib.

**AZƏRTAC**

*Vüqar Rəhimzadə:*

## Rüstəm İbrahimbəyovun damarında erməni qanı axır

**Peşəsindən, cəmiyyətdəki sosial statusundan asılı olmayaraq ümummilli məsələlərdə hər kəs vətəndaşlıq mövqeyi nümayiş etdirməli, dövlətçilik və milli maraqları hər şeydən uca tutmalıdır. Xalqımız hər zaman bu kimi məsələlərdə vahid mövqedən çıxış etməyi bacarıb. Təəssüf ki, "sapı özümüzdən olan" bəzi "baltalar" hələ də çirkin niyyətlərindən əl çəkmək fikrində deyillər. Daim Vətənə, xalqa qarşı təbliğat aparan bu cür ünsürlər erməni maraqlarına xidmət edirlər.**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Mətbuat Şurası İdarə Heyətinin üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

V.Rəhimzadə qeyd edib ki, ssenari müəllifi Rüstəm İbrahimbəyov olan 2015-ci ildə çəkilmiş "Qafqaz üçlüyü" filmində Azərbaycan xalqının vəhşi, qəddar, mədəniyyətsiz, milli kökləri olmayan obrazda, ermənilərin isə sülhsevər kimi təqdim olunması İbrahimbəyov kimi antimilli ünsürlərin hansı qaranlıq mənbələrdən "qidalandığı"nı açıq şəkildə nümayiş etdirir. "Filmə diqqət yetirdikdə burada tarixi faktların, mövcud reallıqların, baş verən hadisələrin təhrif olunduğunu, qərəzli və yalan məlumatların yer aldığını görürük. Rüstəm İbrahimbəyova sual vermək lazımdır, Dağlıq Qarabağda baş verən hadisələr, torpaqlarımızın 20 faizinin ermənilər tərəfindən işğal olunması nə tez yadından çıxıb? Bəs, Xocalı soyqırımı, qətlə yetirilən 613 Xocalı sakininin ruhu qarşısında necə cavab verəcəksən? Bütün bunları inkar etmək üçün ən azı erməni olmaq lazımdır. Görünür, İbrahimbəyovun damarında erməni qanı axır. O, öz əməlləri ilə bu faktı bir daha təsdiq edir", - deyə Vüqar Rəhimzadə vurğulayıb.

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, filmin əvvəlində azərbaycanlı uşaqların qorxaq, erməni uşaqların isə mərd, güclü, geniş ürəkli obraz kimi təqdim olunması İbrahimbəyovun ermənilərin əlində alət olduğunu, onların çirkin maraqlarına xidmət etdiyini nümayiş etdirir. İbrahimbəyov kimi milli xəyanətkarların iç üzü, əsl "niyyətləri" hər kəsə məlumdur. Bu kimi ünsürlər hər zaman pul, şöhrət üçün milli maraqları satmağa hazırdırlar. Bir vaxtlar Əkrəm Əylisli "Daş yuxular" əsəri ilə xalqımıza xəyanət etdiyi kimi, Rüstəm İbrahimbəyov da "Qafqaz üçlüyü" filmi ilə öz xislətini ortaya qoydu. Bəlkə də erməni "qardaşları" buna görə onun boynundan medal da asacaqlar. Ancaq Azərbaycan xalqı bu cür namərdləri bir daha qəbul etməyəcək. Məncə, insan üçün ən böyük əzab, dərd öz Vətənindən, torpağından qovulmaqdır. Əminəm ki, milli mənsubiyyəti olmayan, kökü bilinməyən İbrahimbəyov insani hisslərini itirdiyinə görə, bu, onun üçün bir o qədər də önəm daşımır.

V.Rəhimzadə əlavə edib ki, İbrahimbəyovun bu əməli bir daha "milli şura" adlı qurumun fəaliyyətini antimilli ideyalar əsasında qurduğunu göstərir: "Bir vaxtlar Əli Kərimli, Cəmil Həsənli kimilər "milli şura"da birləşərək Rüstəm İbrahimbəyovu cəmiyyətə "ziyalı" kimi təqdim etməyə çalışırdılar. İndi bu şəxslər Rüstəm İbrahimbəyovun bu "əməllərinə" necə bəraət qazandıracaqlar? Təbii ki, bu, mümkün deyil. Çünki elə "milli şura" və bu cür ünsürlər də ermənipərəst dairələrə xidmət edirlər. Bu cür faktlar onların əsl simasını bir daha xalqa nümayiş etdirir."

"İki sahil" qəzetinin baş redaktoru İbrahimbəyovun "Qafqaz üçlüyü" filmi ilə özünü "humanist" kimi tanıtmağa çalışdığını, ancaq bu filmin bir daha İbrahimbəyovun Azərbaycanın və xalqımızın düşməni olduğunu təsdiqlədiyini qeyd edib.

**AZƏRTAC**

*Mələhət İbrahimqızı:*

## "Qafqaz üçlüyü" filminin maliyyə mənbəyi yaxşı araşdırılarsa, ermənilərlə bağlı olduğu üzə çıxar

**Əkrəm Əylislinin "Daş yuxular" cızma-qarasından sonra Rüstəm İbrahimbəyovun öz xalqına qarşı bu yaramaz, xəyanətkar davranışı bütün dünyada azərbaycanlıları ən neqativ fonda təqdim etmək üçün yeni əsas yaradır. Azərbaycanlı tərəfindən "etiraf" olunan bu "həqiqətlər" dünya erməniliyi üçün əsl hədiyyədir. "Qafqaz üçlüyü" filmində Azərbaycan xalqının vəhşi, qəddar, riyakar, mədəniyyətsiz, milli kökləri olmayan obrazda, ermənilərin isə alicənab, sülhsevər, "vəhşi türkün qurbanı" kimi təqdim olunması düşmən xislətli birisinin məhsuludur.**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Mələhət İbrahimqızı deyib.

Mələhət İbrahimqızı bildirib ki, belə bir filmin çəkilməsini təsəvvür edə bilməzdim. Çünki damarında azərbaycanlı qanı axan bir kəs heç zaman belə film ərsəyə gətirməz. Bu filmdə Azərbaycan xalqına həqarət edilir. Bunu yalnız damarında erməni qanı olan, ermənipərəst, erməni düşüncəli, erməni təfəkkürlü insan edə bilərdi. Filmin ssenari müəllifi olan Rüstəm İbrahimbəyov burada öz millətini vəhşi, zorakılıq edən xalq kimi göstərib. Damarında erməni qanı axan bu şəxsin yaramaz davranışı Azərbaycan xalqına qarşı xəyanətdir. O, bu filmi çəkərkən başqaları ilə işbirliyi edib. Onun bu filmdə Azərbaycan xalqını təhqir etməsi, öz millətinin "vəhşi" obrazını yaratmaqla aşağılaması azərbaycanlılara və Azərbaycan adına olan hər şeyə dərin nifrətinin və düşmən münasibətinin təzahürüdür. Bu filmin maliyyə mənbəyi yaxşı araşdırılarsa, birbaşa və ya dolayısı ilə ermənilərlə bağlı olduğu üzə çıxar.

"Bu film Rüstəm İbrahimbəyovun xalqımıza qarşı xəyanətkar əməlinin göstəricisidir", - deyə Milli Məclisin deputatı vurğulayıb.

**AZƏRTAC**

## Azərbaycanlıların təqsiri nədir və ya Rüstəm İbrahimbəyovun ikrahdoğuran filmi haqqında

**"Bakinski raboçi" qəzetinin 23 may tarixli nömrəsində tanınmış kinorejissor Ayaz Salayevin "Rüstəm İbrahimbəyov və onun ermənilərin müsibətlərinə görə azərbaycanlıların təqsirkar olması haqqında filmi" sərlövhəli məqaləsi dərc olunub. AZƏRTAC məqaləni təqdim edir.**

* * *

Azərbaycan haqqında yazanlar çox vaxt bizim səriştəsizliyimizə və ya qətiyyətsizliyimizə ümid edirlər. Belələri düşünürlər: ya heç nə başa düşməyəcəklər, ya da cavab verməyəcəklər...

"Qafqaz üçlüyü" filminin (2015, rejissorlar - Eldar Şengelaya, Fuad İbrahimbəyov, ssenari müəllifi Rüstəm İbrahimbəyov) yaradılmasından iki il sonra mən bu filmi təsadüfən gördüm, başa düşdüm və cavab verirəm.

Filmin proloqunda uşaqlar qayadan suya tullanırlar. Onlardan biri - ən qoçağı qorxaq dostunu ürəkləndirir. Az sonra məlum olur ki, bu qorxaq azərbaycanlı, qoçaq, həm də filmin baş qəhrəmanı isə Bakı ermənisidir. O böyüyəcək, yüksək ixtisaslı, nəcib və gözütox həkim-oftalmoloq olacaq. O, öz həkimlik məharətini Moskvada nümayiş etdirir, onun oğlu, istedadlı aktyor isə Bakıda, ögey atanın ailəsində Azərbaycan soyadı altında yaşamaqda davam edir. O da Moskvaya köçüb getməyə hazırlaşır, bir tamaşada iştirak edir, bu tamaşa onun aktyor taleyini həll etməlidir. Nəcib həkimin miras alması üçün hansı səbəbdənsə çox vacibdir ki, onun bioloji oğlu təcili surətdə özünün əsl erməni soyadını qaytarsın.




Ən dəhşətli hadisələr bundan sonra başlanır.

Azərbaycanlı qəddar kənd uşaqları haradansa bu zavallı aktyorun etnik mənşəyi barədə öyrənərək onu itələyib quyuya salır və daşa basırlar - ekranda erməni ziyalıların qaniçən vəhşi türklərin əlindən çəkdiyi əbədi əziyyətlərin obrazı canlanır.

Oğlunun itməsindən xəbər tutan ata qəhrəmancasına sərhədi keçir və uşaqlıqda dostluq etdiyi aciz oğlanın yanına qonaq gəlir. Düzdür, artıq həmin oğlan böyük kişidir, Azərbaycanda neft ehtiyatlarının tükənməsi barədə uzaqgörənlik etdiyinə görə vəzifədən qovulub. Qəzəblənmiş azərbaycanlılar dərhal həmin nəcib erməninin gizləndiyi evin ətrafında toplaşır. Burada televiziya müxbiri də var - aydındır ki, o, erməni talanlarına həvəskar olan bakılıların quracağı linç məhkəməsini çəkmək üçün gəlib...

...Hər halda yaşlı bədbəxt həkimi döyə bilirlər. Sonda bunu sərhəd xidmətinin məmuru aeroportda edir. O, həkimi döyməkdən ləzzət alır, aşkar görünür ki, bu, onun çoxdankı arzusu imiş.

Bircə bunu əlavə etmək qalır ki, haqqında danışdığımız filmə erməni kinematoqrafçılarının heç bir aidiyyəti yoxdur. Bu "dostluq" filminin rejissoru gürcü kinosunun az qala klassiki sayılan və vaxtilə Bakıda 26 Komissar haqqında filmlə yadda qalmış klassik Nikolay Şengelayanın oğlu Eldar Şengelayadır.

Bu rejissor Abxaziya mövzusunda heç vaxt buna oxşar film çəkməzdi. Amma onun özünə haqq qazandırması üçün bəhanəsi var - filmin ssenari müəllifi azərbaycanlı, məşhur yazıçı, dramaturq və ssenarist Rüstəm İbrahimbəyovdur.

Yeri gəlmişkən, filmdə döyülmüş aktyor məhz İbrahimbəyovun pyesi əsasında hazırlanan tamaşada oynamalıdır. Üstəlik, ssenari müəllifi Rüstəm İbrahimbəyov özü qəhrəmanlarından birinin dili ilə filmdə öz pyesini tərifləyir (yadımdadır, bir dəfə o, Bakıda keçirilən kinofestivalda özü-özünə mükafat təqdim etmişdi).

Yazıçı İbrahimbəyovun mənsub olduğu xalq iyirmi beş ildir ki, işğal altındakı əzəli torpaqlarının qaytarılması arzusu ilə yaşayır. O, öldürülmüş, qanlı əllərini və ayaqlarını uzatmış azərbaycanlı uşaqların fotoşəkillərini görməyə bilməzdi. Bu gün yazıçı Rüstəm İbrahimbəyovu sənətkar kimi narahat edən bir problem var - erməninin Bakıda rahat və təhlükəsiz yaşaması.

Özü də filmdən göründüyü kimi, bu insan azərbaycanlıları o qədər də sevmir.

O, çılğın vəziyyətdə imzaladığı "antierməni məqaləni" lənətləyir. O, Bakıda özünü çox həyasızcasına aparır, çünki onun fikrincə, azərbaycanlılar aqressiv olsalar da, qorxaqdırlar. Onlar hətta əllərinə düşmüş gürcünün də üstünə dəstə ilə hücum çəkir, digərləri döyülən qocanın yanından saymazyana ötüb keçirlər (yeri gəlmişkən, filmin finalında məlum olur ki, həmin gürcü döyülməkdən ölüb).

Filmdə hətta bir-birinə yaxın insanların münasibətləri də ən adi mənəviyyatdan və insaniyyətdən uzaqdır. Gənc aktyor bircə anda onu böyüdüb boya-başa çatdırmış, tərbiyə etmiş insanı satmağına görə demək olar ki, vicdan əzabı çəkmir, onun atalığı isə əsla təəssüflənmir ki, özünün oğlu hesab etdiyi oğlan birdən-birə təzə atasının tərəfinə keçib. Üstəlik, hətta buna sevinir də: "Axır ki, mənim oğlum müdafiə olunacaq".

Həqiqətən, filmin müəlliflərinin bizə Azərbaycan kimi qələmə verdikləri - nazirdən başlamış aeroportdakı həyasız qeydiyyatçıya qədər hamının əclaf olduğu, ac qalmağa razı olduğu, amma təki qoca gürcünü dəstə ilə döyüb öldürmək imkanı verilməsini istəyən insanların dünyasında heç kəs müdafiə oluna bilməz.

...Bu filmdə yalnız bir insan haqqında yaxşı fikir söylənilir. Moskvada qoca erməni bizim qəhrəmandan soruşur: "Tamaşa necə adlanır?"- "İbrahimbəyovun "İlgək" pyesi". "İbrahimbəyov? Məgər bu azərbaycanlıdır?". Qəhrəmanımız baş barmağını yuxarı qaldıraraq deyir: "Bax, belə adamdır" (yəni, qəribə də olsa, yaxşı adamdır, başqaları kimi deyil).

Bu filmdə Moskva müqəddəs məkandır, orada bütün problemlər həll olunur, hamı xoşbəxtlik tapır. Finalda bu fikir bəsit müqayisə yolu ilə ifadə olunub: Bakıda sözlərinə əməl etməyən yaramazlar bədbəxt azərbaycanlının ofisini darmadağın ediblər (vəhşilər hətta sevimli oyuncağa da rəhm etməyiblər), Moskvada isə həmin dövrdə ağıllı tərpənib gedənləri böyük uğur gözləyir: tamaşaçılar pyesi gurultulu alqışlarla qiymətləndirirlər. Mənası aşkardır - istər Bakıda bağlanmış ofis, istərsə də Moskvadakı alqışlar - bütün bunlar Sovet imperiyasının dağılmasına görə təəssüfləndiyini heç vaxt gizlətməyən müəllifin özünün həyatında baş verənlərdir.

Bəs gürcü rejissoru buna sövq edən nə olub?

Azərbaycanlıları yaramazlar və cəlladlar kimi göstərmək arzusu



onun təhtəlşüurunun hansı guşəsində yaranıb (Gürcüstanın indiki Prezidenti də Xocalı qurbanlarının xatirəsinə ehtiramını bildirməkdən imtina edib). Aşkardır ki, rejissor bu başdansovdu, açıq-aydın xaltura tipli işində öz qarşısına heç bir yaradıcı vəzifə qoymayıb, Puşkinin duel tapançası tipli operetta yaradıb. Film Azərbaycan dilini yaxşı bilməyən insanlar tərəfindən səsləndirilib (məsələn, rəsmi məmur "növbətçi" əvəzinə "dejurnA" deyir). Eybəcər sifətli bakılı millətçilərin rollarını gürcülər ifa edir, çünki bu filmdə ssenari müəllifinin ən yaxın qohumlarından başqa heç bir azərbaycanlı iştirak etmək istəməyib.

Filmdə personajlardan biri deyir: "Ermənilər bizim bir nömrəli düşmənlərimizdir". Bax, burada müəllif Qarabağ münaqişəsinin başlıca səbəbini nə də görməsini aydın ifadə edir. Buna səbəb Azərbaycan torpaqlarının işğal edilməsi deyil, yeri gəlmişkən, filmdə bu barədə bircə kəlmə də deyilmir. İbrahimbəyovun fikrincə, buna səbəb azərbaycanlıların ermənilərə izahedilməz nifrətidir. Hazırda geniş yayılmış bu nöqteyi-nəzər Rusiya KİV-ləri tərəfindən səylə ictimai şüura yeridilir. Bu fikri azərbaycanlıdan eşitmək xüsusilə "qiymətlidir". Aydın məsələdir ki, bunu təşəkkür almaq, filmdə göstərildiyi kimi, pyes müəllifinin alqışlanması üçün edirlər. Bu film Böyük Ağ Çarın qarşısında qulluq göstərmək cəhdi (özü də heç də birinci olmayan cəhd), yalnız özünü vəhşi həmvətənləri fonunda humanist və bu humanizminə görə qəhrəman kimi göstərmək istəyidir. Bunlar həmin "vəhşilər"dir ki, müəllif yaxın keçmişdə prezidentliyə namizədliyini irəli sürərək onlara rəhbərlik etməyə hazırlaşırdı.

Belə sənətkarlar Sovet imperiyasının tipik məhsuludur. Onlar ümid bəslədikləri təşəkkürü alır və rəğbəti qazanırlar. Lakin bunlar həmişə ikrah doğurur. Bəs hələ də Bakıda mövcud olan və bu müəllifin hələ də nominal rəhbərlik etdiyi təşkilatın üzvləri hansı hissləri keçirirlər?

**Ayaz SALAYEV,**
**kinorejissor.**

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Nazirliyin Gəncə şəhərində yaradılan Regional Peşə Tədrisi Mərkəzində olaraq, burada peşə tədrisi üçün müvafiq maddi-texniki bazanın yaradılması yönündə aparılan işləri nəzərdən keçirib.



Bu barədə ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatında qeyd olunur ki, S.Babayev Mərkəzin qurulması işlərinin keyfiyyətlə aparılmasını və sürətləndirilməsini, digər vətəndaşlarla bərabər, əlilliyi olan şəxslərin də burada peşə hazırlığının təşkili üçün daha geniş imkanların, habelə fiziki məhdudiyyətli şəxslərin rahat hərəkəti üçün uyğun şəraitin yaradılmasını tapşırıb.

Nazir Gəncə Şəhər Pensiyaçıların Ərazi Sosial Xidmət Mərkəzinə gələrək, burada aparılan əsaslı təmir və yenidənqurma işlərini nəzərdən keçirib, müvafiq tapşırıqlar verib. Özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və köməklik göstərə biləcək əmək qabiliyyətli qohumları olmayan pensiya yaşına çatmış şəxslər bu Mərkəzdə stasionar şəraitdə sosial xidmətlərlə təmin ediləcəklər. Müəssisədə müvafiq şəxslərin dövlət himayəsində rahat yaşayışı, onların keyfiyyətli sosial xidmətlərlə təminatı üçün hər cür şərait yaradılacaq. Mərkəzin cari il ərzində istifadəyə veriləcəyi planlaşdırılır.

Nazirliyin Protez-Ortopedik Bərpa Mərkəzinin Gəncə şəhərindəki filialına gələn S.Babayev burada protez-ortopedik məmulatların hazırlanması şəraitinin və əhaliyə xidmətin yaxşılaşdırılması üçün müvafiq tədbirlərin görülməsini tapşırıb.

Nazir Yevlax Əlillərin Regional Bərpa Mərkəzində də olub. Bölgədəki əlilliyi olan insanlara bərpa müalicəsi xidmətləri göstərən mərkəzdə əsaslı təmir və yenidənqurma işləri davam etdirilir. S.Babayev müəssisədə reabilitasiya şəraitinin müasir tələblərə uyğun qurulması barədə göstəriş verib.

* * *

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev nazirliyin Respublika Əlillərin Bərpa Mərkəzində, Protez-Ortopedik Bərpa Mərkəzində və Mərdəkan Müalicə Pansionatında olub.

Ölkəmizdə əlilliyi olan şəxslər üçün bərpa-müalicə infrastrukturunun təkmilləşdirilməsi və yüksək standartlar səviyyəsində qurulması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sosial inkişaf kursunun əsas istiqamətlərindən biridir. İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bu sahədə aparılan işlərdən biri kimi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Respublika Əlillərin Bərpa Mərkəzində müasir tələblərə uyğun reabilitasiya şəraiti yaradılıb. Mərkəzə gələn S.Babayev burada əlilliyi olan şəxslərin sağlamlığının bərpası yönündə aparılan işlərlə yaxından tanış olub. Reabilitasiya işlərinin səmərəli təşkili, bu sahədə mütərəqqi dünya təcrübəsində mövcud olan və konkret nəticələr əldə etməyə imkan verən bərpa-müalicə proqramlarının tətbiqi, reabilitasiya səviyyəsinin artırılması üçün səylərin gücləndirilməsi, bərpa müalicəsinə cəlb olunan hər bir əlilliyi olan şəxsə diqqət və qayğı ilə yanaşılması və s. barədə tapşırıqlarını verib.

Dövlət başçısının "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş şəxslərin yüksək texnologiyalı reabilitasiya vasitələri ilə təmin olunmasına dair əlavə tədbirlər haqqında" 30 mart 2017-ci il tarixli Sərəncamına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik Bərpa mərkəzində hazırda yüksək texnologiyalı protezlərin hazırlanması sexi yaradılır. S.Babayev mərkəzə gələrək, yüksək texnologiyalı protezlərin hazırlanması sexinin qurulması işlərini nəzərdən keçirib.



S.Babayev nazirliyin Mərdəkan Müalicə Pansionatında olarkən müəssisədə aparılan əsaslı təmir və yenidənqurma işlərinin daha keyfiyyətlə yerinə yetirilməsini, əlilliyi olan insanlar üçün müasir standartlar səviyyəsində reabilitasiya şəraitinin yaradılmasını tapşırıb.

**Mustafa KAMAL,**
**"Respublika".**

# Bakıda qafqazşünas alimlər Azərbaycan Xalq Cümhuriyyətinin region ölkələri ilə münasibətlərini araşdırırlar



**Mayın 23-də Bakıda Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin və Qafqazşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" mövzusunda keçirilən ikigünlük beynəlxalq elmi konfrans öz işinə başlayıb.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə konfrans iştirakçıları Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.





Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) 100 illiyinə həsr olunan konfransda Azərbaycan ilə yanaşı, Türkiyə, Rusiya, İran, Qazaxıstan, Çex Respublikası, Niderland Krallığı, Estoniya, Ukrayna və Gürcüstandan 200-dən çox alim və tədqiqatçı iştirak edir.

AMEA-nın Mərkəzi Elmi Kitabxanasında keçirilən tədbirdə Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva dövlət başçısı İlham Əliyevin konfrans iştirakçılarına təbrik məktubunu oxuyub *(Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).*

Prezident İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi haqqında" Sərəncamını xatırladan AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsini xalqımızın həyatında misilsiz hadisə kimi dəyərləndirib. Vurğulanıb ki, bu, müsəlman Şərqində ilk parlamentli respublika olan AXC-yə verilən tarixi qiymətdir. Cəmi iki ilə yaxın yaşamış Cümhuriyyət zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoyub, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayıb. AXC parlamenti ölkədə yaşayan bütün xalqlara təmsil olunmaq hüququ verən ilk qanunverici orqan olmaqla, tolerantlığın və demokratiyanın Şərqdə ilk nümunəsidir.

AXC-nin elm və təhsil sahəsindəki xidmətlərindən bəhs edən AMEA-nın vitse-prezidenti bildirib ki, 1919-cu ildə Bakı Universitetinin fəaliyyətə başlaması ilə müsəlman Şərqində ilk dəfə dünyəvi təhsil verən ali məktəb yaradılıb. AXC parlamentinin qəbul etdiyi 230-dək qanun və qərar içərisində elm, təhsil və mədəniyyətin geniş yer tutduğu, ölkəmizdə akademik çalışmaların hələ Cümhuriyyət dövründə yarandığı diqqətə çatdırılıb. Cümhuriyyət dövründə bir neçə elmi-tədqiqat qurumlarının fəaliyyət göstərdiyini deyən İ.Həbibbəyli Fövqəladə Təhqiqat Komissiyasının akademik səviyyədə gördüyü işlər nəticəsində 1918-ci ilin mart soyqırımı ilə bağlı 36 cilddən ibarət nəşrin hazırlandığını vurğulayıb.

Akademik İ.Həbibbəyli Cümhuriyyətin yaranmasının xalqımızın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirdiyini, 1990-cı ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə AXC-nin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edildiyini deyib. O, Ümummilli Liderin müstəqil və güclü dövlət qurmaq ideyalarının bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini, iqtisadi, siyasi, elmi, mədəni və digər sahələrdə bir sıra uğurlara imza atıldığını bildirib.

Beynəlxalq tədbirin böyük ictimai və siyasi əhəmiyyətə malik olduğunu söyləyən İ.Həbibbəyli diqqətə çatdırıb ki, Qafqaz dünyanın bir çox dövlətlərinin diqqət mərkəzində və maraq dairəsində olan həssas regiondur. On ölkədən 38-dən çox xarici tədqiqatçının iştirak etdiyi bu konfrans AXC-nin ideyalarını yenidən araşdırmağa və dəyərləndirməyə kömək göstərəcək.

Dövlət müstəqilliyini bərpa edən xalqımızın müasir dövrdə yeni nailiyyətlərə imza atdığını bildirən AMEA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova deyib: "Bu nailiyyətlər gerçək tarixi ənənələri bilmədən mümkün ola bilməz. Müstəqillik dövründə elmi, mədəni, iqtisadi və digər sahələrdə müəyyən məsələləri həll edən Azərbaycan dövləti öz tarixi təcrübəsindən geniş faydalanıb. Azərbaycan tarixinin öyrənilməsinin elmi-nəzəri və praktik əhəmiyyəti, ilk növbədə, bir sıra amillərlə səciyyələnir. Onlardan ən əsası Şərqdə ilk dünyəvi müsəlman dövləti olan AXC-nin təcrübəsinin öyrənilməsidir. Cümhuriyyətin həyata keçirdiyi tədbirlər müasir dövrdə də demokratik normaların əsasları hesab olunur. Həmin dövrdə müxtəlif sahələrdə qəbul olunan qərarlar və aparılan islahatlarla yanaşı, AXC, ilk növbədə, dövlətçilik ənənələrini formalaşdırıb və bunun üçün çalışıb".

Qafqazşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı Musa Qasımlı beynəlxalq konfransın proqramı, bölmə iclasları və müzakirə olunacaq məsələlər barədə məlumat verib. Bildirilib ki, konfransın bölmə iclaslarında yerli və xarici tədqiqatçıların Qafqaz ölkələrinin geosiyasi şəraiti, regionda cərəyan edən siyasi, sosial-iqtisadi və digər proseslər, o cümlədən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə bağlı 180-dək məruzəsi dinləniləcək. İclaslara Azərbaycanın və xarici ölkələrin görkəmli alimləri sədrlik edəcəklər.

Milli Məclisin deputatları Hikmət Babaoğlu, Fazil Mustafa və digər çıxış edənlər cəmi 23 ay mövcud olmasına baxmayaraq AXC-nin fəaliyyətinin böyük tarixi əhəmiyyət daşıdığını söyləyib, Azərbaycan dövlətçilik ənənələrinin qorunmasında Cümhuriyyətin mühüm rolundan söz açıblar. Bildirilib ki, AXC-nin yaranması dövlətçilik tariximizdə mühüm mərhələlərdən biridir. Xalq Cümhuriyyəti özündən əvvəlki Azərbaycan dövlətçiliyinin, bir növ, məntiqi davamı kimi meydana çıxıb, sonrakı dövrlərdə də müstəqil Azərbaycanın əsaslarını yaradıb. Ulu öndər Heydər Əliyevin hələ 1998-ci ilin yanvarında AXC-nin yaranmasının 80-ci ildönümü ilə əlaqədar imzaladığı Sərəncam bu tarixi yaddaşa, tarixi əsaslara söykənirdi.

Türkiyənin Atatürk Universitetinin professoru İbrahim Ethem Atnur, Qazaxıstanın Dövlət Tarix İnstitutunun direktoru, professor Burkitbəy Ayağan, Rusiya Elmlər Akademiyası Cənub Elm Mərkəzinin humanitar tədqiqatlar şöbəsinin müdiri, professor Yevgeni Krinko, Suxumi Dövlət Universiteti Qafqazın Geotarixi və Geosiyasi Araşdırmaları Mərkəzinin prezidenti, professor Quram Marxuliya, çexiyalı tədqiqatçı Pyotr Vaqner, Taras Şevçenko adına Kiyev Milli Universitetinin xarici ölkələrin yeni və ən yeni tarixi kafedrasının dosenti Oleq Kupçik çıxış edərək AXC və onun qurucuları ilə bağlı fikirlərini bölüşüblər. AXC-nin Azərbaycan dövlətçiliyinin inkişafındakı rolundan danışan alimlər Cümhuriyyətin yalnız türk dünyasının deyil, müsəlman aləminin və bütövlükdə Şərq tarixinin ən parlaq səhifələrindən biri olduğunu vurğulayıblar.

Konfrans işini bölmə iclasları ilə davam etdirib.

**AZƏRTAC**

# Mərkəzi Bankda yeni pul nişanlarının təqdimat mərasimi keçirilib

**Mayın 23-də Mərkəzi Bankda müstəqil dövlətimizin qurucusu ümummilli lider Heydər Əliyevin 95 illik və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileylərinin əbədiləşdirilməsi məqsədilə hazırlanmış xatirə pul nişanlarının və yeni 200 manatlıq pul nişanının təqdimat mərasimi keçirildi.**





AZƏRTAC-ın məlumatına görə, Mərkəzi Bankın sədri Elman Rüstəmov qeyd edib ki, milli valyuta dövlət müstəqilliyinin əsas atributlarından biridir. Bu baxımdan 1992-ci ildə Azərbaycan manatının dövriyyəyə buraxılması mühüm hadisə idi. Lakin, dövriyyəyə buraxıldığı ilk illərdə manat ölkədə yeganə ödəniş vasitəsi deyildi. Məhz ümummilli lider Heydər Əliyevin 1993-cü il 11 dekabr tarixli müvafiq Fərmanı ilə manatın respublika ərazisində yeganə ödəniş vasitəsi olması təsbit edildi və ölkə rubl zonasından tamamilə çıxdı. Manatın yeganə ödəniş vasitəsi olması 1995-ci ildə qəbul olunmuş Konstitusiya ilə bir daha öz təsdiqini tapdı.




Qeyd olundu ki, Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli Fərmanına əsasən 2006-cı il yanvarın 1-dən manatın denominasiyası həyata keçirildi və tədavülə yeni nəsil pul nişanları buraxıldı. "Vahid ailə" konsepsiyası əsasında hazırlanmış yeni nəsil kağız və metal pul nişanları Azərbaycanın bütün sahələrdə müstəqilliyini, ölkəmizin qədim tarixini, zəngin mədəniyyətini, milli-mənəvi dəyərlərini, müstəqillik illərində dinamik inkişafını özündə əks etdirirdi.

12 il müddət keçməsinə baxmayaraq milli pul nişanlarımız estetik görünüşünə, konseptual mövzusuna, müasirliyinə görə öz aktuallığını qoruyur. Azərbaycan Mərkəzi Bankı nağd pul sferasında müasir çağırışları nəzərə alaraq pul nişanlarımızın mühafizə sistemlərinin müasirləşməsini daim diqqət mərkəzində saxlayır.

Son dekadada ölkə iqtisadiyyatının dinamik inkişafını, dövriyyədə olan nağd pulun strukturunda baş verən dəyişiklikləri nəzərə alaraq, eləcə də nağd pul sferasında səmərəliliyin yüksəldilməsinin təmin edilməsi məqsədilə yeni 200 manatlıq pul nişanının tədavülə buraxılması barədə qərar qəbul edilmişdi. Yeni pul nişanının dizaynı hazırlanarkən müsabiqədə ABŞ şirkəti "Crane Currency" tərəfindən təqdim olunan dizayn qalib seçildi. Bu dizayna bir sıra şirkətlərin təqdim etdiyi mütərəqqi mühafizə sistemləri inteqrasiya edilməklə pul nişanı "Giesecke+Devrient" şirkətində istehsal olundu.

E.Rüstəmov bildirdi ki, bu gün Mərkəzi Bank mövzusu müstəqil Azərbaycanın memarı ümummilli liderin xatirəsinə inşa edilmiş "Heydər Əliyev Mərkəzi" olan 200 manatlıq kağız pul nişanını tədavülə təqdim edir. Yeni banknotun üzərində ölkəmizin, paytaxtımızın ən müasir simvollarından biri olan Heydər Əliyev Mərkəzinin əzəmətli təsviri, Mərkəzin əsas eksteryer və interyerinin dizayn elementləri, milli xalça nümunələrinin elementləri, digər milli ornamentlər əks olunub.

Sonra E.Rüstəmov ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinin əbədiləşdirilməsi məqsədilə hazırlanmış xatirə pul nişanını təqdim etdi. Vurğuladı ki, Heydər Əliyevin və Azərbaycanın Xalq Cümhuriyyətinin yubileyləri arasında rəmzi əlaqə var. Azərbaycanın son 100 illik inkişafının uzun bir dövrü məhz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin Azərbaycana başçılıq etdiyi birinci dövrdən başlayaraq onun iqtisadi müstəqilliyinin güclü təməlləri yaradılmışdı.

90-cı illərin əvvəlində Azərbaycanın müstəqilliyi üçün ciddi təhlükələrin yarandığı şəraitdə xalqın təkidi ilə hakimiyyətə gələn ümummilli lider qısa müddətdə milli həmrəyliyi bərpa etdi, dövlətçiliyin möhkəmləndirilməsi və bazar iqtisadiyyatı istiqamətində radikal islahatlara başladı. İqtisadi sahədə əsas prioritet olan makroiqtisadi sabitlik bərpa edildi. Ölkədə iqtisadi idarəetmə mexanizmi yenidən quruldu, yeni institutlar formalaşdı.

Görülən irimiqyaslı tədbirlər nəticəsində ölkədə qısa müddətdə iqtisadi artım bərpa olundu və əhalinin həyat səviyyəsi yüksəlməyə başladı.

Bu dövrdə radikal islahatlardan əlavə ölkənin uzunmüddətli inkişafı üçün həm də güclü bir maliyyə təkanı lazım idi. Mürəkkəb tarixi şəraitdə Ulu Öndərin atdığı ən böyük addımlardan biri neft strategiyası çərçivəsində "Əsrin müqaviləsi"nin imzalanması oldu. Neft strategiyası ölkənin gələcək inkişafında həlledici amilə çevrildi.

Ümummilli liderin hakimiyyətə qayıdışı maliyyə-bank sisteminin formalaşması və inkişafında da dönüş nöqtəsi oldu. Qəbul olunmuş proqramlar əsasında bank sistemi sağlamlaşdırıldı, ciddi konsolidasiya və restrukturizasiya proseslərinə başlandı, özəl bankların sayı optimallaşdırıldı.

E.Rüstəmov qeyd etdi ki, Ulu Öndərin titanik zəhməti ilə yaradılmış iqtisadi potensial əsasında onun layiqli davamçısı İlham Əliyev "qızıl inkişaf dekadası"na nail oldu. 2003-cü ildən başlayaraq həyata keçirilən "təqibedici" artım doktrinası sayəsində milli iqtisadiyyatın həcmi 3.3 dəfə artmışdır. Sürətli artım sayəsində əhalinin həyat səviyyəsi əhəmiyyətli yüksəlmiş, yoxsulluq cəmi bir dekadada 9 dəfə azalmışdır. Strateji valyuta ehtiyatları 27 dəfə artaraq 44 milyard dollara çatmışdır. Təsadüfi deyil ki, Qlobal rəqabətlik hesabatına görə Azərbaycan MDB-nin ən rəqabətli ölkəsidir.

E.Rüstəmov bildirdi ki, müstəqil siyasətə və əsaslı islahatlar kursuna son prezident seçkilərində "HƏ" deyən xalq İlham Əliyevə növbəti etimad mandatı verdi. Heç şübhəsiz, öz taleyinin sahibi olan xalq Liderin rəhbərliyi altında bütün hədəflərə çatacaq.

O, tədbir iştirakçılarının diqqətinə çatdırdı ki, Heydər Əliyevin 95 illik yubileyi ölkə miqyasında layiqincə keçirilməkdədir. Mərkəzi Bank da ümummilli liderin adının əbədiləşdirilməsini daim diqqətdə saxlayır. Ümummilli liderə həsr olunmuş xatirə pul nişanlarının buraxılması artıq xoş ənənə halını alıb. Ulu Öndərin anadan olmasının 80, 85 və 90 illik yubileyləri münasibətilə Mərkəzi Bank tərəfindən müxtəlif qiymətli metallardan hazırlanmış silsilə yubiley pul nişanları tədavülə buraxılmışdı. Bu pul nişanları ölkə ictimaiyyəti, yerli və xarici numizmatlar tərəfindən yüksək maraqla qarşılanmışdır.

Bu gün də Mərkəzi Bank bir daha qürur hissi ilə Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş xatirə pul nişanının tədavülə buraxılmasını elan edir. Xatirə pul nişanları çəkisi 1 troy unsiyası (31.1 qram) olan yüksək əyarlı qızıldan və platin-qızıl kombinasiyasından ibarətdir.

Yubiley pul nişanının üzərində Azərbaycanın dövlət rəmzlərindən, eləcə də memarlıq, şəbəkə sənətində geniş yayılmış ornamentlərdən istifadə olunub. Pul nişanının ön hissəsində xüsusi relyefdə əks olunmuş Dövlət bayrağının fonunda Ulu Öndərin qızıl və platindən hazırlanmış portreti əks etdirilib. Arxa hissəsində isə Dövlət gerbi təsvir olunub.

E.Rüstəmov, eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin əbədiləşdirilməsi məqsədilə hazırlanmış xatirə pul nişanını təqdim etdi. Bildirdi ki, Prezident İlham Əliyev tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin layiqincə keçirilməsi və cari ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması haqqında müvafiq sərəncamlar imzalamışdır. Bunlar dövlət səviyyəsində tariximizə, keçmişimizə böyük ehtiramın təcəssümüdür.

Azərbaycan Mərkəzi Bankı da bu əlamətdar tarixin əbədiləşdirilməsi məqsədilə Cümhuriyyətin yaradılmasının 100 ilik yubileyinə hər olunmuş xatirə pul nişanlarını tədavülə buraxır. Xatirə pul nişanları çəkisi 1, ¼ və ½ troy unsiyası olan yüksək əyarlı qızıldan ibarətdir.

Yubiley pul nişanının ön hissəsində azadlıq rəmzi olan günəş, Azərbaycan Respublikasının xəritəsi və onun üzərində dövlət himnimizdən bir parça, Dövlət bayrağının qrafiki dizaynı təsvir etdirilib. Cümhuriyyətin yarandığı tarix, istiqlal mübarizəmizin qələbəsi kimi zəncirlənmiş qəfəsdən azadlığa çıxan göyərçinlər təsvir olunub. Yubiley pul nişanının arxa hissəsində Dövlət gerbi, aypara ilə səkkizguşəli ulduz və şəbəkə sənətində geniş yayılmış ornamentlər əks olunub.




Hər iki yubiley pul nişanları Böyük Britaniyanın "The Royal Mint" Kral Sikkəxanasında istehsal edilib.

E.Rüstəmov təqdim edilən pul nişanlarının dünya numizmatlarının kolleksiyalarında xüsusi yer tutacağına əminliyini ifadə etdi.

Mərkəzi Bankın sədri çıxışının sonunda bir daha qeyd etdi ki, Heydər Əliyev dövlətçilik məktəbi bundan sonra da müstəqil Azərbaycanın onilliklər boyu tərəqqi etməsində ideoloji nüvə olaraq qalacaq. Bu irsin layiqli davamçısı ölkə Prezidenti İlham Əliyev öz modernist baxışı ilə Azərbaycanı bundan sonra da parlaq gələcəyə doğru uğurla aparacaq.

**AZƏRTAC**

# ATU (UTECA) tələbələri Şəmkir Aqroparkın Logistika Mərkəzində olublar

Azərbaycan Texnologiya Universitetinin (UTECA) tələbələrindən ibarət "Port of Baku" komandası Şəmkir Aqroparkın Logistika Mərkəzinə səfər ediblər. Müəssisənin fəaliyyəti haqqında geniş məlumat almaq imkanı qazanan tələbələrin bəzi suallarına yerində aydınlıq gətirilib. İlk öncə, Logistika Mərkəzinin direktor müşaviri Aqşin Sadıxov müəssisə haqqında geniş məlumat verərək qeyd edib ki, Şəmkir Aqropark sifarişçinin tədarük zəncirinin idarə edilməsində logistik əməliyyatlar rolunu öz üzərinə götürərək, məhsulun nəqlindən başlayaraq, son istifadəçiyə qədər çatdırılmasını, eləcə də malların saxlanılmasını təmin edir.



Mərkəzin xarici əlaqələr üzrə mütəxəssisi Jalə Rzayeva isə müəssisənin MDB, Avropa, Yaxın və Orta Şərq ölkələrinə daşıma üzrə 3-cü şəxs logistikası xidmətləri təklif etdiyini, həmçinin anbarlar, paylama terminalları, nəqliyyat və intellektual idarəetmə sistemləri ilə bağlı əlavə xidmətlər təklif etdiyini diqqətə çatdırıb.

Sonra tələbələr Logistika Mərkəzinin zəngin laboratoriyası ilə tanış olublar. Laboratoriyanın müdiri Yusif Hacıyev qeyd edib ki, burada ən yeni texnologiyalara əsaslanan müayinələrin dəqiqlik dərəcəsi 91-93% təşkil edir. Kompleksə saxlama üçün veriləcək məhsulların əvvəlcə laborator analizlə keyfiyyəti yoxlanılır, yararlı olub-olmadığı müəyyənləşdirilir. Beləliklə, ən əsas risklərdən birinin - saxlanılacaq məhsulun xarab olmasının qarşısı alınır. Aparılan laborator analizlər sayəsində region sahibkarları becərdikləri məhsulların mövcud standartlara nə dərəcədə uyğun olmasını, ixraca yararlılığını da əvvəlcədən öyrənirlər.




Sonra Mərkəzin texnoloqu Arzu Şıxlı tələbələri saxlanma soyuducuları ilə tanış edib. O qeyd edib ki, mərkəzdəki ümumi həcmi 24.000 ton olan 71 soyuducu kamera bütün növ məhsulları uzun müddət və keyfiyyətli saxlamağa imkan verir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# AZƏRTAC-da gürcü jurnalistlərlə görüş

**Azərbaycan Dövlət İnformasiya Agentliyində (AZƏRTAC) Gürcüstanın aparıcı KİV-lərinin nümayəndələri ilə görüş olub. Tədbir "Report" informasiya agentliyi tərəfindən keçirilən mediatur çərçivəsində təşkil edilib.**



AZƏRTAC xəbər verir ki, agentliyin müxtəlif redaksiyalarının əməkdaşlarının iştirak etdiyi görüşdə Cənubi Qafqazda münaqişə zonaları haqqında mötəbər informasiya alınması və KİV-lərin bu prosesdə rolu barədə fikir mübadiləsi aparılıb. Azərbaycan-Gürcüstan iqtisadi əməkdaşlığının müxtəlif aspektləri müzakirə edilib, hər iki ölkə üçün əlamətdar hadisələrə - müstəqillik elan edilməsinin 100 illiyinə hazırlığın gedişi məsələlərinə toxunulub.

Gürcü jurnalistlərə AZƏRTAC-ın tarixi barədə məlumat verilib. Qeyd edilib ki, AZƏRTAC respublikanın aparıcı informasiya agentliyi, yerli və xarici KİV-lər üçün rəsmi dövlət informasiyasının yeganə mənbəyidir. Qonaqların diqqətinə çatdırılıb ki, bu informasiya agentliyi rəsmi məlumatlarla yanaşı, 7 dildə ictimai-siyasi və iqtisadi mövzulara, habelə elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ətraf mühit və başqa sahələrə aid etibarlı və operativ informasiya yaymaqla məşğuldur.

Gürcüstan KİV-lərinin nümayəndələri Ketevan Xositaşvili, Ketevan Xatiaşvili, Uça Kandelaki və başqaları azərbaycanlı həmkarları ilə təcrübə mübadiləsi aparmaqda maraqlı olduqlarını qeyd ediblər. Vurğulanıb ki, burada ortaq dəyərlər, coğrafi yaxınlıq, tarixi əlaqələr və sair amillər mühüm rol oynayır.

Hökumət ilə vətəndaş cəmiyyəti arasında körpü kimi xidmət edən KİV-lərin mühüm rolu qeyd edilib.

Səmimi dostluq şəraitində keçən görüşdə Azərbaycanın və Gürcüstanın media strukturları arasında əməkdaşlığın gücləndirilməsi məsələlərinə dair fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Mir Cəlalın xatirəsinə həsr olunan hekayə müsabiqəsinin qalibləri mükafatlandırılıb





**Mayın 23-də İçərişəhərdəki "Ədibin Evi"ndə Mir Cəlalın xatirəsinə həsr olunan hekayə müsabiqəsinin qalibləri mükafatlandırılıb. Müsabiqə müasir Azərbaycan ədəbi prosesinin və hekayə janrının inkişafına təkan vermək məqsədilə keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Xalq Yazıçısı, müsabiqənin münsiflər heyətinin sədri Elçin görkəmli yazıçı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin zəngin yaradıcılığından, elmi və pedaqoji fəaliyyətindən və nəcib insani keyfiyyətlərindən söhbət açıb. Bildirib ki, böyük ədib və alim, görkəmli pedaqoq Mir Cəlal Paşayev müdrik insan, nəcib şəxsiyyət idi. Yazıçının müxtəlif janrlarda olan bədii əsərləri həm mövzu zənginliyi, həm də dil və üslub xüsusiyyətləri ilə diqqəti cəlb edir, böyük maraq doğurur.



Elçin qeyd edib ki, ictimai fikrin formalaşmasında və inkişafında böyük xidmətləri olan Mir Cəlal Paşayev XX əsr Azərbaycan ədəbiyyatının klassiklərindən biridir, böyük əsərlər, romanlar yazmasına baxmayaraq, hekayə janrı onun yaradıcılığında mühüm yer tutur. "Ədəbiyyatımızda hekayə janrının ötən əsrin ortalarında tam şəkildə formalaşmasında, aparıcı janrlardan birinə çevrilməsində görkəmli ədibin xüsusi rolu olub. Bu rol ikili səciyyə daşıyırdı. Mir Cəlal müəllim bir tərəfdən ədəbiyyatşünas alim kimi hekayə janrının mahiyyətini, xüsusiyyətlərini açıb göstərir, onun tədqiqi və təbliği ilə məşğul olurdusa, digər tərəfdən, özü hekayələr yazırdı. Bu mənada yazıçı hekayə janrının yüksək bədii-estetik səviyyəyə çatmasında mühüm rol oynayıb", - deyə Elçin vurğulayıb.

Ədəbi mühit barədə fikirlərini bölüşən münsiflər heyətinin sədri müsabiqəyə təqdim olunan hekayələrin ölkəmizdə bu janra olan maraqdan xəbər verdiyini qeyd edib, gənclərin dünyagörüşünün genişlənməsi və yaradıcılıq qabiliyyətinin püxtələşməsində mütaliənin böyük rolundan söz açıb.

"Ədibin Evi"nin əməkdaşı Elnur İmanbəyli məlumat verib ki, bu müsabiqədə yaş fərqi qoyulmasa da, iştirak edənlərin əksəriyyətini gənclər təşkil edib. Səkkiz ay davam edən müsabiqəyə altı dildə 389 hekayə, o cümlədən bölgələrdən 15 hekayə təqdim olunub. Müsabiqə iştirakçıları arasında 165 məktəbli, habelə 20 əcnəbi vətəndaş var. Qaliblər Xalq Yazıçısı Elçinin sədrliyi ilə tanınmış yazıçı və tənqidçilərdən ibarət münsiflər heyəti tərəfindən müəyyənləşdirilib.

Sonra müsabiqənin qaliblərinə diplom və pul mükafatı təqdim olunub. İki nəfər ikinci, altı nəfər isə üçüncü yerə layiq görülüb. Qaliblər arasında ölkəmizin tanınmış qələm sahibləri ilə yanaşı, bu sahədə yeni addım atan gənclər, hətta məktəblilər də yer alıb.

Tədbirdə "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə, "Mədəniyyət" telekanalının direktor müavini, Əməkdar İncəsənət Xadimi İlham Rəhimli, Xalq Şairi Nəriman Həsənzadə, Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla, Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid görkəmli yazıçı Mir Cəlalın alim və müəllim kimi şəxsi keyfiyyətlərindən, yaradıcılığının özünəməxsusluğundan danışıb, onunla bağlı xatirələrini bölüşüblər. Qeyd edilib ki, müsabiqəyə təqdim edilən 389 hekayənin hər biri böyük sevgi ilə yazılıb və gənclərin hekayə janrına müraciət etmələri onların ədəbiyyata, mütaliəyə olan marağından irəli gəlir.

Alimin ailəsi adından oğlu, "ADA" Universitetinin rektoru, professor Hafiz Paşayev çıxış edərək tədbirin təşkilində zəhməti olan hər kəsə təşəkkürünü bildirib. Bu cür tədbirlərin milli-mənəvi dəyərlərin qorunmasına, ədəbi mühitin formalaşmasına müsbət təsiri olduğunu vurğulayıb.

Görkəmli yazıçının oğlu, Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev belə müsabiqələrin mütəmadi keçirilməsini təklif edib.

AZƏRTAC

## *NATO generalları:* Azərbaycan zabitləri Alyansın tərəfdaş ölkələrindən olan həmkarları üçün layiqli nümunədirlər



**Azərbaycan zabitləri NATO-nun tərəfdaş ölkələrindən olan həmkarları üçün layiqli nümunədirlər.**

Bu fikir mayın 23-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun NATO-nun Hərbi Tərəfdaşlıq İdarəsinin rəisi, general-mayor Odd Egil Pedersen və Şimali Atlantika Alyansının Quru Qoşunları Komandanlığının qərargah rəisi, diviziya generalı Erhan Uzun ilə görüşündə səslənib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə general-polkovnik Z.Həsənov Azərbaycanın NATO ilə əməkdaşlığa xüsusi önəm verdiyini diqqətə çatdırıb. Nazir vurğulayıb ki, Azərbaycan Ordusunun hərbi qulluqçuları Alyansın müxtəlif proqramlarında, xüsusilə də Əfqanıstanda həyata keçirilən "Qətiyyətli Dəstək" missiyasında daim iştirak edirlər.

Qonaqlar Azərbaycanın NATO üçün vacib tərəfdaş olduğunu qeyd edərək Alyansın qərargahlarında xidmət keçən, müxtəlif proqramlarında iştirak edən Azərbaycan zabitlərinin bilik və bacarıqlarını yüksək qiymətləndiriblər. Ordumuzun şəxsi heyətinin yüksək peşəkarlığından və hazırlığından məmnun qaldıqlarını bildirən qonaqlar xüsusi qeyd ediblər ki, NATO-nun proqramları çərçivəsində keçirilən müxtəlif tədbirlərdə bilik və təcrübələrini bölüşən Azərbaycan zabitləri digər ölkələrdən olan həmkarları üçün layiqli nümunədirlər.

Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramı çərçivəsində Azərbaycan Ordusunun kəşfiyyat bölüyünün 2-ci səviyyəli özünüqiymətləndirmə üzrə səhra təlimini izləmək üçün ölkəmizdə olan NATO-nun generalları əvvəlki illərdə olduğu kimi, bu dəfə də təlimin uğurla başa çatacağına əminliklərini bildiriblər.

AZƏRTAC

# Madriddə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş təntənəli qəbul təşkil edilib

**Azərbaycan Respublikasının İspaniya Krallığındakı səfirliyi tərəfindən mayın 22-də Madriddə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş təntənəli qəbul keçirilib.**



AZƏRTAC xəbər verir ki, mərasimdə İspaniya Krallığının Xarici İşlər və Əməkdaşlıq Nazirliyinin nümayəndələri, bu ölkədə akkreditə olunmuş diplomatik korpusun rəhbərləri və əməkdaşları, dövlət rəsmiləri, yerli kütləvi informasiya vasitələrinin, ictimaiyyətin və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Təntənəli mərasimdə əvvəlcə İspaniyanın və Azərbaycanın dövlət himnləri səsləndirilib.

Tədbiri giriş sözü ilə açan Azərbaycanın İspaniyadakı səfiri Anar Məhərrəmov 1918-ci il 28 may tarixində müsəlman Şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin elan edildiyini, Azərbaycanda həmin dövr üçün mütərəqqi hesab olunan dövlət institutlarının, çoxpartiyalı sistemin, plüralist parlamentin, etnik mənsubiyyətindən, cinsindən, dinindən və sosial vəziyyətindən asılı olmayaraq vətəndaşların bərabər hüquqlara malik olduğunu qeyd edib. Səfir Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövr ərzində əldə edilən nailiyyətlərdən geniş bəhs edərək, dövlət quruculuğu sahəsində həyata keçirilmiş tədbirlərin, Azərbaycan Milli Ordusunun yaradılmasının, Azərbaycan dilinin rəsmi dövlət dili elan edilməsinin, ölkənin himninin, bayrağının və gerbinin təsis edilməsinin Azərbaycan tarixində yeni şərəfli səhifə açdığını bildirib. Səfir, eyni zamanda, gənc demokratik respublikanın bir sıra dövlətlərlə diplomatik əlaqələr qurması barədə tədbir iştirakçılarını məlumatlandırıb.

A.Məhərrəmov Azərbaycan Respublikasının 1991-ci ildə öz müstəqilliyini bərpa edərkən Azərbaycan Xalq Cümhuriyyətinin demokratik ənənələrinə sadiq qaldığını, özünü Cümhuriyyətin siyasi və mənəvi varisi elan etdiyini bildirib. Səfir qeyd edib ki, müstəqilliyinin ilk illərində ölkə çətin vəziyyətlə üzləşib, Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin nəticəsi kimi Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal olunub və 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkünə çevrilib. A.Məhərrəmov bu ağır dövrdə Azərbaycan xalqının tələbi ilə ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayının 15-də yenidən hakimiyyətə qayıtdığını və bununla da, ölkə tarixində yeni parlaq dövrün başlanğıcının qoyulduğunu vurğulayıb.

Səfir xüsusi olaraq qeyd edib ki, müasir Azərbaycanın əldə etdiyi tərəqqi məhz həyatının böyük hissəsini öz xalqına həsr etmiş Heydər Əliyevin adı ilə bağlıdır. Siyasi sabitlik, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə atəşkəsin əldə edilməsi (1994), 1994-cü il 20 sentyabr tarixində "Əsrin müqaviləsi"nin imzalanması, ölkənin mötəbər beynəlxalq təşkilatların tamhüquqlu üzvünə çevrilməsi, bütün sahələrdə əsaslı islahatların həyata keçirilməsi məhz ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti, zəngin dövlətçilik təcrübəsi və qətiyyəti sayəsində mümkün olub. Azərbaycan xalqı Heydər Əliyev tərəfindən görülmüş işləri layiqincə qiymətləndirərək, onu xalqın ümummilli Lideri kimi əbədiləşdirib.

Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin siyasi kursu bu gün dövlətimizin başçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində Azərbaycan regionda lider ölkəyə çevrilib.

Diplomat çıxışında Azərbaycan Respublikasının təşəbbüsü və iştirakı ilə həyata keçirilən irimiqyaslı iqtisadi, nəqliyyat və enerji layihələrinə toxunub, ölkədə iqtisadiyyatın şaxələndirilməsi, turizmin təşviqi, habelə ölkəmizin birinci Avropa Oyunları, ümumdünya Şahmat Olimpiadası, İslam Həmrəyliyi Oyunları, Bakı Beynəlxalq Humanitar Forumu, Formula 1 Azərbaycan Qran-Pri-si kimi mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməsindən ətraflı bəhs edib. Səfir TAP, TANAP layihələri, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə salınması, "ASAN xidmət" vasitəsilə elektron şəkildə vizaların qısa müddət ərzində əldə edilməsi barədə tədbir iştirakçılarını ətraflı məlumatlandırıb. "Qeyd olunmalıdır ki, sadalanan bütün nailiyyətlər dövlətimizin başçısı İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasətin nəticəsidir. 2018-ci il aprelin 11-də Azərbaycanda keçirilən prezident seçkilərində dövlətimizin başçısı İlham Əliyev böyük səs çoxluğu ilə qələbə qazandı. Azərbaycan xalqı növbəti dəfə sabitlik, tərəqqi, rifah və dinamik inkişafa səs verdi", - deyə diplomat vurğulayıb.

İspaniya-Azərbaycan əlaqələrinə toxunan səfir iki ölkə arasında dostluq münasibətlərinin uğurla davam etdirildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, İspaniya və Azərbaycan qarşılıqlı olaraq beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləyir, bir çox məsələlərdə hər iki ölkənin mövqeyi üst-üstə düşür. İspaniya Azərbaycanın ərazi bütövlüyünü tanıyır, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyini açıq şəkildə dəstəkləyir və münaqişənin beynəlxalq hüququn hamılıqla tanınmış norma və prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarıdır. 2005-ci ildə Azərbaycanın İspaniyada səfirliyinin açılmasının ikitərəfli əlaqələrin inkişafına təkan verdiyini deyən A.Məhərrəmov 2017-ci ildə ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinin qeyd edildiyini vurğulayıb.

Daha sonra çıxış edən İspaniya Krallığının Xarici İşlər və Əməkdaşlıq Nazirliyinin beynəlxalq iqtisadi əlaqələr idarəsinin baş direktoru Kristina Serrano Leal müsəlman Şərqində ilk olaraq Azərbaycan Xalq Cümhuriyyətində qadınların seçki hüququnun təmin edildiyini, müstəqil demokratik respublikada bir çox sahələrdə mütərəqqi islahatların həyata keçirildiyini vurğulayıb.

K.Serrano Leal İspaniya ilə Azərbaycan arasında bir sıra sahələrdə sazişlərin imzalanmasının, 2014-cü ildə İspaniyanın Azərbaycanda diplomatik nümayəndəliyinin açılmasının hər iki ölkə arasında əlaqələrin yüksələn xətt üzrə inkişafından xəbər verdiyini diqqətə çatdırıb, ikitərəfli əməkdaşlığın daha da genişlənməsinə, habelə yaxın gələcəkdə İspaniyanın Azərbaycanda səfirliyinin açılmasına ümidvar olduğunu bildirib.

K.Serrano Leal iki ölkə arasında mövcud olan dostluq əlaqələrinin bu gün yüksələn xətlə inkişaf etdiyini deyib, bunun dövlət başçılarının iradələri və iki ölkə xalqının istəyi nəticəsində əldə olunduğunu vurğulayıb.

K.Serrano Leal bir daha bu əlamətdar hadisə münasibətilə İspaniya tərəfinin səmimi təbriklərini çatdırıb, Azərbaycan dövləti və xalqına rifah, inkişaf və tərəqqi arzu edib.

Daha sonra Azərbaycanın Xalq Artisti Zabit Nəbizadənin başçılıq etdiyi musiqi heyəti tərəfindən ifa edilmiş "Qarabağ şikəstəsi" və "Sarı gəlin" xalq mahnıları, həmçinin İspaniyanın Kraliça Sofiya Ali Musiqi Məktəbində təhsil alan həmyerlimiz Kamran Ömərli tərəfindən skripkada səsləndirilən Qara Qarayevin "İldırımlı yollarla" baletindən və Corc Bizenin "Karmen" operasından musiqi parçaları tədbir iştirakçıları tərəfindən böyük maraq və rəğbətlə qarşılanıb.

Sonda tədbir iştirakçıları səfirlik tərəfindən nəşr etdirilən İspaniyanın nüfuzlu "Diplomacia Siglo XXI" (Diplomatiya XXI əsr) jurnalının Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş xüsusi buraxılışının təqdimatı və bu məqsədlə çap etdirilən Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümünə ithaf edilmiş xüsusi poçt markalarının nümayişi keçirilib.

Daha sonra tədbir iştirakçıları Azərbaycan milli mətbəxinin ən gözəl təamlarından dadıb, ölkəmizin tarixini və milli adətlərini özündə əks etdirən guşəyə baxıblar. Tədbirin keçirildiyi məkanda qədim və müasir Azərbaycanı özündə əks etdirən fotosərgi nümayiş etdirilib.

AZƏRTAC

# Ədliyyə Nazirliyində Avropa Şurasının nümayəndəsi ilə görüş keçirilib





**Avropa Şurasının Bakı Ofisinin təşkilatçılığı ilə "Vətəndaş cəmiyyəti dialoqu" layihəsi çərçivəsində keçirilmiş konfransda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Avropa Şurasının Demokratiya Baş Direktorluğunun demokratik idarəçilik departamentinin rəhbəri Daniel Popesku ilə ədliyyə nazirinin müavini Toğrul Musayevin görüşü keçirilib.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafı üzrə görülən tədbirlərdən danışan nazir müavini qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını, bu sahədə qanunvericilik və institusional islahatların aparıldığını vurğulayıb. T.Musayev ötən həftə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi çərçivəsində Azərbaycanın milli məruzəsinin dinlənilməsi zamanı "Vətəndaş cəmiyyəti dialoqu" layihəsi barədə məlumat verildiyini bildirərək, layihənin əhəmiyyətini qeyd edib.

Azərbaycana ilk səfərindən məmnunluğunu ifadə edən D.Popesku layihə ətrafında faydalı fikir mübadiləsi aparıb, onun icrasında Ədliyyə Nazirliyinin əsas tərəfdaş olduğunu vurğulayaraq layihənin uğurla həyata keçirildiyini diqqətə çatdırıb. Qonaq əməkdaşlığın bundan sonra da davam etdirilməsi ilə bağlı niyyətini bildirib.

Tədbirdə Avropa Şurasının Bakıdakı Ofisinin rəhbəri Zoltan Hernyes də iştirak edib.

AZƏRTAC

## Las-Veqas şəhərinin meri Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı təbrik bəyannaməsi imzalayıb

**ABŞ-ın Nevada ştatının Las-Veqas şəhərinin meri Karolin Qudman Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı təbrik bəyannaməsi imzalayıb.**

**Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a bildiriblər ki, konsulluğa ünvanlanmış bəyannamədə Las-Veqas şəhərinin meri Azərbaycan xalqını bu xüsusi yubiley münasibətilə təbrik edərək, xoş arzularını çatdırır. Sənəddə, həmçinin Azərbaycan-ABŞ dostluq və tərəfdaşlıq əlaqələrinin davamlı inkişafından məmnunluq ifadə edilir.**

**Qeyd edək ki, dünyanın əyləncə paytaxtı adlandırılan Las-Veqas şəhəri ABŞ-ın ən çox ziyarət olunan turizm məkanlarından biridir. Əhalisinin sayına görə Nevada ştatının ən böyük şəhəri olan Las-Veqas ştatın ən aparıcı mədəni, maliyyə və biznes mərkəzidir.**

AZƏRTAC

## ABŞ Konqresinin Helsinki Komissiyasının rəhbər üzvü Azərbaycan Xalq Cümhuriyyətinin yubileyi münasibətilə bəyanat verib

**ABŞ Konqresinin üzvü, Konqresin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Komissiyasında (Helsinki Komissiyası) demokratların rəhbəri Alsi Heystinqs (demokrat, Florida) Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi münasibətilə ABŞ Konqresinin Nümayəndələr Palatasında bəyanatla çıxış edib.**

AZƏRTAC xəbər verir ki, bəyanatda 1918-ci il mayın 28-də müstəqil dövlət qurmuş Azərbaycan Respublikasına təbrik ünvanlanır. Qeyd edilir ki, İstiqlal Bəyannaməsi qəbul edən Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk parlament respublikası idi.

Diqqətə çatdırılır ki, bolşevik işğalına məruz qalan Azərbaycanda sovet hakimiyyəti qurulub və respublika SSRİ-nin tərkibinə qatılıb. Sovet İttifaqı dağılarkən Azərbaycan xalqı yenidən müstəqillik hərəkatına başlayıb və 1991-ci il avqustun 30-da müstəqilliyini bərpa edib. ABŞ Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 25-də tanıyıb. Bəyanatda ABŞ-ın həmin tarixdən etibarən Azərbaycan Respublikasının dövlət müstəqilliyini, suverenliyini və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü dəstəklədiyi xüsusi vurğulanır.

Azərbaycanın xüsusən 2001-ci il 11 sentyabr hadisələrindən sonra ABŞ-a dost olması ilə seçildiyi, Birləşmiş Ştatlara qarşı o hücumları həyata keçirən şəxslərin ədalət məhkəməsi qarşısına çıxarılması üçün Azərbaycanın ABŞ-a təmənnasız yardım etdiyi bildirilir.

Bəyanatın sonunda Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin qeyd edilməsi münasibətilə Azərbaycan xalqına səmimi təbriklər çatdırılır.

AZƏRTAC

*Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi*

# Milli ədliyyə və məhkəmə sistemi mütərəqqi tarixi ənənələr əsasında inkişaf edir

**Azərbaycanı müstəqilliyə aparan yol nə qədər keşməkeşli və çətin olsa belə, bu tarixi həqiqət xalqımızda qürur və fəxarət hissi doğurur: 100 il əvvəl - 1918-ci il mayın 28-də müsəlman Şərqində müstəqilliyini bəyan edən parlamentli respublika olmuş Azərbaycan tarixən can atdığı, mücadilə apardığı müstəqillik idealına qovuşmuşdur. Regionda ilk demokratik, hüquqi və dünyəvi dövlətin Azərbaycanda elan edilməsi xalqımızın zəngin dövlətçilik ənənələrinə malik olmasının əyani təsdiqidir.**

Ötən əsrin əvvəllərində çar Rusiyasında cərəyan edən ictimai-siyasi proseslər, imperiya daxilində bir araya gətirilmiş xalqların azadlıq uğrunda mübarizəyə qalxması 1918-ci ilin mayında Azərbaycana öz istiqlaliyyətini elan etmək imkanı yaratmışdır. Müasir Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin bəyan etdiyi kimi, əgər XX əsrin əvvəllərində xalqımız milli azadlıq, dövlət müstəqilliyi yolunda ilk dəfə böyük addım atmışdısa, XX əsrin sonunda milli azadlığa, dövlət müstəqilliyinə tam nail olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti ilk gündən müstəqilliyi qoruyaraq inkişaf etdirməyi, səmərəli sosial-iqtisadi islahatların həyata keçirilməsi yolu ilə xalqın firavan həyat tərzinə nail olmağı, hər bir fərdin qanuni maraq və mənafeyinin müdafiəsində dayanmağı qarşıda mühüm vəzifələr kimi müəyyənləşdirmişdir. Cümhuriyyətin yaradıcısı olmuş böyük ziyalılar hüquqi və demokratik dövlət quruculuğu yolunda ədliyyə və məhkəmə-hüquq islahatlarının da zəruriliyini ilk gündən düzgün dəyərləndirərək bu istiqamətdə sistemli tədbirlər həyata keçirmişlər. 100 illik inkişaf yolu keçmiş Azərbaycan ədliyyəsinin şanlı tarixi 1918-ci il mayın 28-dən - Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gündə Ədliyyə Nazirliyinin təsis edilməsi ilə başlamış, təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuşdur. Həmin il noyabrın 22-də nazirliyin Əsasnaməsi təsdiq edilmiş, funksiya və səlahiyyətləri müəyyən edilmişdir.

Ədliyyə Nazirliyi o vaxtlar şəraitin çətinliyinə, imkanların və kadrların məhdudluğuna baxmayaraq, ölkənin ədliyyə sisteminin formalaşdırılması və inkişafı naminə xeyli iş görmüşdür. İlk növbədə ədliyyə, məhkəmə və istintaq strukturları bərpa edilmiş, respublikada qayda-qanunun bərqərar olması, yeni hüquq sisteminin təşkili ilə bağlı əhəmiyyətli qərarlar qəbul olunmuşdur. Eyni zamanda, zəruri hüquqşünas kadrların hazırlanması və əhalinin hüquqi maarifləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Fəaliyyəti unudulmaz hadisələrlə yadda qalan Ədliyyə Nazirliyinin həm də çətin və mürəkkəb dövrü olmuşdur. 1920-ci ildə Cümhuriyyətin süqutundan sonra milli dövlətçiliyin əsas sütunlarından olan Ədliyyə Nazirliyi ləğv edilərək əvəzində Xalq Ədliyyə Komissarlığı yaradılmış, səlahiyyətləri xeyli məhdudlaşdırılmış, iki dəfə ləğv olunaraq yenidən təsis edilmiş, funksiyaları ayrı-ayrı vaxtlarda prokurorluq, məhkəmə orqanlarına verilmiş, bu hallar müəyyən müddət onun inkişafına ciddi əngəllər törətmişdir.

Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilməsi, ədliyyə işinin təkmilləşdirilməsi məhz 1970-ci ilə — ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəldiyi dövrə təsadüf edir. Həmin dövrdən etibarən Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmiş, ümumiyyətlə, onun gələcək inkişafı üçün əlverişli şərait yaradılmışdır.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra da ulu öndər Heydər Əliyev Ədliyyə Nazirliyinin inkişafı, hüquqi dövlətdə onun layiq olduğu yerini tutması üçün əlindən gələni əsirgəməmiş, hüquqi dövlətin yaradılması baxımından ədliyyə orqanlarının fəaliyyətinin gücləndirilməsini zəruri saymışdır. 1995-ci ilin 12 noyabrında ilk milli Konstitusiyanın qəbulundan sonra respublikamızda məhkəmə-hüquq islahatları ilə yanaşı, ədliyyə orqanlarının fəaliyyətinin keyfiyyətcə yeni dövrün tələblərinə uyğun təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Müdrik liderin rəhbərliyi ilə aparılmış hüquq islahatları çərçivəsində qəbul edilmiş çoxsaylı qanunlara, imzalanmış fərmanlara əsasən Ədliyyə Nazirliyinin üzərinə yeni vəzifələr qoyulmuşdur. Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidməti təsis edilməklə yanaşı, keçmiş MDB-də ilk olaraq Azərbaycanda istintaq təcridxanaları nazirliyin tərkibinə verilmişdir. Ədalət mühakiməsi əleyhinə olan və bəzi digər cinayətlərin ibtidai istintaqının aparılması, bütün qeyri-tibbi məhkəmə ekspertizalarının həyata keçirilməsi nazirliyə həvalə edilmişdir. Azərbaycan Respublikası adından xarici dövlətlər və beynəlxalq təşkilatlarla hüquqi sahədə əməkdaşlıq üzrə müqavilələrin bağlanması, onların icrasının təmin edilməsi, cinayət işləri üzrə hüquqi yardım göstərilməsi, o cümlədən ekstradisiya və digər məsələlərin həlli Ədliyyə Nazirliyinə tapşırılmışdır.

Bu islahatları son 15 ildə inamla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev hüquqi dövlət quruculuğu prosesində müstəsna xidmətləri olan Ədliyyə Nazirliyinin fəaliyyət dairəsinin, statusunun, cəmiyyətdəki rolunun və mövqeyinin əhəmiyyətli dərəcə yüksəlməsini praktik addımları ilə təmin etmişdir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli Fərmanının əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Fərman əsasında bölgələrdə regional ədliyyə şöbələrinin və rayon (şəhər) qeydiyyat şöbələrinin yaradılması yerli əhalinin bu orqanlara müraciət imkanlarını asanlaşdırmış, habelə regionların sosial-iqtisadi inkişafına, xüsusilə yerli hüquqşünasların işlə təminatına xidmət etmişdir.

Bundan əlavə, 18 aprel 2006-cı il tarixli "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə", 26 may 2006-cı il tarixli "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunu, 2009-cu il 6 fevral tarixdə təsdiqlənmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" və digər sənədlər Azərbaycan ədliyyə sisteminin müasirləşdirilməsini, onun cəmiyyət həyatında mühüm dövlət təsisatına çevrilməsini təmin etmişdir. "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"yə uyğun olaraq" Nazirliyə ədliyyə sahəsində vahid dövlət siyasətini və tənzimlənməsini həyata keçirən hüquq-mühafizə orqanı statusu verilmiş, onun fəaliyyət istiqamətləri genişlənmiş, konkret hüquq və vəzifələri müəyyən edilmişdir.

Ədliyyə sistemində islahatların mühüm istiqamətlərindən biri kimi son 15 ildə məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi və təkmilləşdirilməsi tədbirləri də xüsusi qeyd olunmalıdır. Ədalət mühakiməsinin səmərəsinin və məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılmasına xüsusi diqqət yetirən dövlətimizin başçısı cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ölkədə məhkəmə sisteminin müasirləşdirilməsi, mövcud nöqsanların aradan qaldırılması üzrə ardıcıl tədbirlər görülmüşdür. Məhkəmə fəaliyyətini tənzimləyən qanunvericilik bazası Avropa Şurası ekspertləri ilə birgə ətraflı tədqiq edilmiş və onun daha da təkmilləşdirilərək beynəlxalq standartlara tam uyğunlaşdırılması işinə başlanılmışdır.

Aparılmış islahatlar nəticəsində yeni təsisat — məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan və əsasən hakimlərdən ibarət formalaşdırılmış Məhkəmə-Hüquq Şurası yaradılmışdır. Demokratik cəmiyyətlərdə mühüm yer tutan bu təsisatın yaradılmasında əsas məqsəd məhkəmələr və hökumət arasında yeni qurum yaratmaqla məhkəmə sisteminin müstəqilliyini gücləndirmək, məhkəmələrin özünüidarə funksiyalarını gücləndirmək olmuşdur. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi və onların fəaliyyəti ilə bağlı digər məsələlər bu orqanın səlahiyyətinə aid edilmişdir.

Təkcə son 15 il ərzində əhalinin məhkəmələrə müraciət imkanlarının yaxşılaşdırılması, bölgələrdə hüquq institutlarının inkişafı məqsədilə 20-dək yeni məhkəmələr, o cümlədən, regional apelyasiya məhkəmələri təsis edilmişdir. Dövlət başçısının 2010-cu il 15 iyul və 9 avqust tarixli fərmanları bu istiqamətdə yeni mühüm mərhələ olmuşdur. Bu fərmanların icrası ilə bağlı ölkədə 4 yerli ağır cinayətlər məhkəmələri, habelə dövlət orqanları tərəfindən vətəndaşların pozulmuş hüquqlarının bərpası məqsədilə 7 inzibati-iqtisad məhkəməsi fəaliyyətə başlamışdır.

Qeyd etmək yerinə düşər ki, son illər Azərbaycandakı sürətli iqtisadi inkişaf və məhkəmə müdafiəsi mexanizmlərinin genişləndirilməsi nəticəsində məhkəmələrə müraciətlərin sayı dəfələrlə çoxalmış, bu da hakimlərin iş yükünün xeyli artmasına gətirib çıxarmışdı. İş yükünün çoxluğu işlərə keyfiyyətlə və vaxtında baxılmasında ciddi çətinliklər yaradırdı. Bununla əlaqədar ölkə Prezidentinin müvafiq fərmanları ilə son illər hakim ştatlarının sayı artırılaraq 600-ə çatdırılmışdır.

Hakimlərin obyektiv və qərəzsiz olmasının, işlərə daha keyfiyyətlə baxılmasının ən mühüm amillərdən biri də onların seçimi prosesinin şəffaflığı və obyektivliyidir. Azərbaycanda bu məqsədlə ən mütərəqqi qaydalar tətbiq edilir. Hələ 2004-cü ildə bu məqsədlə nüfuzlu beynəlxalq ekspertlərin iştirakı ilə işçi qrupu yaradılmış, bir çox ölkələrin təcrübəsi öyrənilməklə, yeni qaydalar işlənmişdir. Çoxsaylı imtahan və müsahibələrdən, namizədlərin hakim vəzifələrinə hazırlanmaları üçün uzunmüddətli kurs və təcrübədən ibarət olan bu seçim proseduru müstəqil qurum olan Hakimlərin Seçki Komitəsi tərəfindən həyata keçirilir.

Azərbaycan Avropa Şurasına üzv qəbul edilərkən üzərinə götürdüyü öhdəliklər sırasında hakimlərin müstəqilliyinin artırılması məqsədi ilə onların təyinat müddəti və seçim proseduru məsələlərinin nəzərdən keçirilməsi də var idi. Aparılan məhkəmə islahatları nəticəsində hakimlərin ən yüksək həddədək — müddətsiz təyinatı müəyyən olunmuş, habelə seçim prosedurları təkmilləşdirilmişdir. Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ) öz hesabatında ölkədə məhkəmə islahatlarına göstərilən diqqəti Avropa dövlətləri sırasında fərqləndirərək yüksək qiymətləndirmişdir.

Ölkəmiz məhkəmə sistemindəki nailiyyətlərinə görə ötən il Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatçısı olmuşdur. Məlumat üçün bildirək ki, iki ildən bir keçirilən bu müsabiqədə ədliyyə və məhkəmə sistemlərinin fəaliyyəti ilə bağlı təşkilata üzv ölkələr tərəfindən təqdim olunan layihələr sırasından dörd ən qabaqcıl və səmərəli təcrübə seçilərək qiymətləndirilir. Azərbaycanın həmin dörd mükafatçıdan biri olması, şübhəsiz, ölkəmizdəki məhkəmə-hüquq islahatlarının mütərəqqi mahiyyəti və miqyası barədə kifayət qədər dolğun təəssürat yaradır.

Yeni məhkəmə binalarının inşası, habelə həmin binalarda müasir texnologiyaların tətbiqi də diqqət mərkəzindədir. Dünya Bankı ilə birgə keçirilən layihəyə uyğun olaraq vətəndaşların məhkəmələrə müraciət imkanlarının daha da asanlaşdırılması və hüquqi xidmətin yaxşılaşdırılması məqsədilə məhkəmə sisteminin vahid internet portalı yaradılmışdır. Bu portal ali, apelyasiya və birinci instansiya məhkəmələri, onların yurisdiksiyası, baxılan işlər və çıxarılan qərarlar, müraciətə əlavə edilməsi zəruri olan sənədlər, qəbul günləri və s. barədə ətraflı məlumat almaq, iddia ərizələri və digər məhkəmə sənədlərinin nümunələrini əldə etmək, həmçinin onlayn rejimində müraciət etmək və cavab almaq imkanı yaradır.

Məhkəmələr üçün yeni inzibati binaların inşası, mövcud binaların əsaslı təmir olunması, hakimlərin müasir informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərindən istifadə imkanlarının yaradılması ümumən, ölkədə ədalət mühakiməsinin səmərəliliyinin daha da yüksəldilməsinə, korrupsiyaya qarşı mübarizəyə xidmət etmişdir. Bakıda və regionlarda inşa olunan yeni məhkəmə binalarının bir üstün cəhəti də ondan ibarətdir ki, onlar inzibati və ictimai zonalara bölünürlər və hər iki zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçün nəzərdə tutulmuşdur. Ədliyyə Nazirliyinin icra və probasiya qurumları, dövlət ittihamçısı və vəkillər ictimai zonadan istifadə edirlər. Bununla da hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız məhkəmə iclas zallarında görüşürlər.

"Ədliyyə sisteminin müasirləşdirilməsi layihəsi" çərçivəsində, həmçinin, Məhkəmə-Hüquq Şurası, Hakimlərin Seçki Komitəsi, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, habelə Ədliyyə Nazirliyinin qeydiyyat qurumları ən müasir İKT-lərlə təchiz olunmuş, "Qeyri-kommersiya hüquqi şəxslər" üçün avtomatlaşdırılmış qeydiyyat informasiya sistemi, Bakıda və bölgələrdə hüquqi məsləhət mərkəzləri yaradılmışdır. Ölkə Prezidenti möhtərəm İlham Əliyevin bir sıra məhkəmə binalarının açılışında şəxsən iştirak etməsi məhkəmə hakimiyyətinin müasirləşdirilməsinə verilən önəmin əyani təzahürü olmuşdur.

Ölkə başçısının 2014-cü il 13 fevral tarixli "Elektron məhkəmə informasiya sisteminin yaradılması haqqında" sərəncamı isə bu sahədə ötən illərdən başlanmış işlərin keyfiyyətcə yeni mərhələdə daha da genişlənməsinə, məhkəmələrdə İKT-nin ən son nailiyyətlərinin tətbiqinə imkan verən əlahiddə əhəmiyyətli sənəd olmuşdur. Bunda məqsəd ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmini, müasir informasiya texnologiyalarının tətbiqi prosesinin sürətləndirilməsidir.

"Elektron məhkəmə" informasiya sisteminin tərkib hissəsi olan "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" adlı layihə 2017-ci ildə Avropa Şurasının ekspertləri tərəfindən məhkəmə sistemində elektron idarəetmənin tətbiqi baxımından ən mütərəqqi layihə kimi qiymətləndirilərək mükafata layiq görülmüşdür. "Məhkəmənin Nəbzi — İdarəetmədə İnqilab" layihəsinin əsas mahiyyəti məhkəmə sistemində mütərəqqi elektron idarəetmənin tətbiq olunmasından ibarətdir. Bu sistem toplanan elektron statistik məlumatlar əsasında müxtəlif növ elektron analitik hesabatların hazırlanmasını, məhkəmə və hakimlərin fəaliyyətinin qiymətləndirilməsini və onun məhsuldarlığının müəyyən olunmasını təmin edir.

Qazanılan nailiyyətlər məhkəmələrlə yanaşı, milli ədliyyə orqanlarının və onun mühüm qolu olan penitensiar sistemin müasirləşdirilməsini, cəzanın adekvatlığı və humanistliyi məsələlərini ön plana çəkmişdir. Azərbaycan Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" sərəncamı ötən illərdən davam etdirilən islahatların keyfiyyətcə yeni mərhələdə uğurlu davamını təmin etmək məqsədi güdür. Ölkə başçısının imzaladığı sərəncamın qayəsində yer alan strateji məqsəd də məhz cinayət-hüquq siyasətinin liberallaşdırılması, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrumetmə tədbirlərinin tətbiqinin məhdudlaşdırılmasıdır. Sərəncam penitensiar sahənin inkişafı və cəza siyasətinin humanistləşdirilməsi baxımından bir sıra strateji vəzifələrin həllinə imkan yaratmışdır.

Aparılan islahatlar deməyə əsas verir ki, Azərbaycanda qanunun aliliyinin təminatı, ədliyyə orqanlarının dövlət idarəçilik mexanizmində nüfuzlu təsisat kimi təşəkkül tapması, o cümlədən ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər konseptual məsələlərin həlli dövlət başçısının xüsusi diqqət mərkəzindədir.

Azərbaycan Xalq Cümhuriyyətinin cığırdaşı olaraq bu il yaranmasının 100-cü ildönümünü qeyd edən Azərbaycan ədliyyəsi son illərdə sürətli müasirləşmə və davamlı inkişaf yolundadır. Ümumilikdə, ölkədə həyata keçirilən islahatlar milli ədliyyə sistemi və məhkəmə orqanlarının fəaliyyətində əsaslı dönüş yaratmış, onların dövlətin hüquq sistemindəki layiqli mövqeyini təmin etmişdir.

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 1918-ci ilin 11 aprel seçkilərində layiqli qələbə qazanaraq səlahiyyətlərinin icrasına başlaması əminliklə söyləməyə əsas verir ki, bundan sonrakı mərhələdə aparılan islahatlar respublikamızda qanunçuluğun, hüquq qaydalarının daha da möhkəmlənməsinin yeni mərhələyə yüksəlməsini təmin edəcəkdir.*

**Ceyhun ƏHMƏDOV,**
**Şəki Rayon Məhkəməsinin sədri.**

# ŞƏRQDƏ İLK DEMOKRATİK RESPUBLİKA

**"Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da xalqımızdaazadlıq, müstəqillik fikirlərini daha da genişləndirmiş oldu".**

**Heydər ƏLİYEV.**

1917-ci ildə Rusiyada baş verən fevral-burjua inqilabı Zaqafqaziya da böyük əks-səda doğurdu. Həmin dövrdə Zaqafqaziyada ictimai-siyasi proseslər özünəməxsus inkişaf istiqaməti kəsb etdi. 1917-ci il noyabr ayında Tiflisdə Zaqafqaziyadan Rusiya Dövlət Dumasına seçilmiş deputatlardan ibarət xüsusi komitə—Zaqafqaziya Komissarlığı yaradıldı.

1918-ci il fevral ayının 14-də həmin deputatlar Tiflisdə yenidən toplaşaraq Zaqafqaziyada ali hakimiyyət orqanı olan "Zaqafqaziya Seymini" təşkil etdilər.

Azərbaycanın görkəmli vətənpərvər və maarifçi nümayəndələri seymdə yaxından iştirak edərək, müsəlman fraksiyası yaratdılar. Bu fraksiyada Fətəli xan Xoyski (ədliyyə naziri), Nəsib bəy Yusifbəyli (maarif naziri), Xudadat bəy Məlikaslanov (dəmiryolu naziri), Əkbər ağa Şeyxülislamov (daxili işlər naziri), Məmmədyusif Cəfərov (sənaye və ticarət naziri) seçildilər.

Həmin dövrdə Azərbaycanın bütün bölgələrində və eləcə də Bakıda ictimai-siyasi vəziyyət olduqca ağır idi. Ermənilər bolşevik nümayəndələri ilə birləşərək Azərbaycanın hər yerində dinc əhaliyə divan tuturdular, yüzlərlə adam qətlə yetirilirdi.

1917-ci ilin sonunda Zaqafqaziya Seymi Zaqafqaziya Müstəqil Demokratik Federativ Respublikasının yaradılmasını elan etdi. Lakin mövcud olduğu müddət ərzində heç bir iş görə bilməyən Zaqafqaziya Seymi fraksiyaların daxili çəkişmələri nəticəsində ləğv olundu.

1918-ci il may ayının 25-də seymin son iclasında Gürcüstan Zaqafqaziya Seymindən çıxaraq həmin ayın 26-da öz dövlət müstəqilliyini elan edir.

Bir gün sonra isə Zaqafqaziya Seyminin buraxılmasından istifadə edən Müsəlman fraksiyası təcili toplantı keçirdi. Toplantıda Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski Milli Şuranın rəyasət heyətinə seçildilər.

Milli Şurada aşağıda adları çəkilənlər qeyd olunur:

1. Fətəli xan Xoyski
2. Xəlil bəy Xasməmmədov
3. Nəsib bəy Yusifbəyov
4. Mirhidayət Seyidov
5. Nəriman bəy Nərimanbəyli
6. Heybətqulu Məmmədbəyov
7. Mehdi bəy Hacınski
8. Ələsgər bəy Mahmudbəyov
9. Aslan bəy Qardaşov
10. Sultan Məcid Qənizadə
11. Əkbər ağa Şeyxülislamov
12. Mehdi bəy Hacıbabayev
13. Məmmədyusif Cəfərov
14. Xudadat bəy Məlikaslanov
15. Rəhim bəy Vəkilov
16. Həmid bəy Şahtaxtinski
17. Firudin bəy Köçərli
18. Camo bəy Hacınski
19. Şəfi bəy Rüstəmov
20. Xosrovpaşa bəy Sultanov
21. Səfər Axundov
22. Məmməd Mahmudov
23. Cavad Məlikaslanov
24. Ağa Molla Axundzadə
25. Həsən bəy Ağayev
26. Mustafa Mahmudi.

Beləliklə, 26 nəfərdən ibarət Azərbaycan Demokratik Cümhuriyyətinin qurucuları seçilir.

1918-ci il may ayının 28-də Milli Şura sədrinin müavini Həsən bəy Ağayev Milli Şuranın tövsiyəsi ilə Şərqdə ilk müstəqil dövlətin "Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması"nı elan edir. Tərkcə Türkdilli xalqlar arasında deyil, bütün islam aləmində ilk dəfə olaraq respublika üsul-idarəsinə qədəm qoyan Azərbaycan xalqının birinci müstəqil hökumətini təşkil etmək bitərəf Fətəli xan Xoyskiyə tapşırıldı.

1918-ci il mayın 28-də bütün ölkələrin radio stansiyalarına, qəzetlərinə "Müstəqil Azərbaycan Demokratik Respublikası"nın yaranması xəbəri çatdırılır.

Baş nazir Fətəli xan Xoyski Azərbaycan dövlətinin vəzifələrini elan edir:

1. Azərbaycan tamhüquqlu müstəqil dövlətdir.

2. Azərbaycan siyasi quruluşuna, formasına görə demokratik dövlətdir.

3. Azərbaycan demokratik dövləti beynəlxalq və xarici dövlət üzvləri ilə və yaxın həmsərhəd dövlətlər və xalqlarla dostluq əlaqələri yaradacaqdır.

4. Azərbaycan Dövləti Cümhuriyyət sərhədi daxilində millətlərin dinindən, ictimai vəziyyətindən, cinsindən asılı olmayaraq, bütün vətəndaşlara siyasi hüquq verir.

5. Azərbaycan Dövləti Cümhuriyyət ərazisində yaşayan xalqlara sərbəst şərait və sərbəst inkişaf yaradır.

6. Səsvermə yolu ilə seçilmiş Cümhuriyyət onun qarşısında cavabdeh olan müvəqqəti hökumət sayılır.

Müstəqil Azərbaycan Cümhuriyyəti 1918-ci ildə Yelizavetpol (Gəncəyə) şəhərinə köçür.

Azərbaycan Xalq Cümhuriyyəti müstəmləkə siyasətinin rəmzi olan Yelizavetpol şəhəri və quberniyasının adının yenidən Gəncə və Gəncə quberniyası adlandırılması, Qaryagin qəzasının Cəbrayıl qəzası adı ilə əvəz olunması fərmanını vermişdir.

1918-ci il sentyabrın 15-də Nuru Paşanın komandan olduğu Qafqaz İslam Ordusu Bakını erməni və bolşevik işğalçılarından təmizləyərək azad edir. Sentyabrın 17-də Milli hökumət Gəncədən Bakıya köçür. Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan olunur.

1918-ci ilin dekabrın 3-nə təyin olunmuş Müstəqil Azərbaycan Demokratik Respublikası parlamentinin iclası dekabrın 7-də baş tutur və beləliklə, müsəlman Şərqində ilk parlamentin birinci iclası təntənəli surətdə açılır.

Səsvermə yolu ilə Əlimərdan bəy Topçubaşov parlamentin sədri, doktor Həsən bəy Ağayev isə sədr müavini seçilirlər.

Ə.Topçubaşov bu zaman İstanbulda olduğu üçün onun işini H.Ağayev aparır. F.Xoyskinin 1918-ci il iyun ayının 17-də Gəncədə təşkil etdiyi ikinci hökumətdə Əlimərdan bəy Topçubaşov xarici işlər naziri vəzifəsini tutmuşdur. O, Azərbaycan Cümhuriyyətinin fövqalədə elçisi və səlahiyyətli naziri kimi İstanbula getmiş, orada diplomatik fəaliyyətə başlamışdır.

1919-cu ilin yanvarında parlamentin 2-ci seçkisində də Ə.Topçubaşov yenidən parlamentin sədri seçilir, lakin parlamentin iclaslarında bir dəfə də olsun iştirak edə bilmir.

Müstəqil Azərbaycan Demokratik Respublikasının Parlamentinin 17 aylıq fəaliyyəti dövründə 145 iclas keçirmişdir. Bu parlamentin qəbul etdiyi ən böyük sənəd Azərbaycan İstiqlal Bəyannaməsi olmuşdur.

Parlament 1918-ci il 9 noyabr tarixli iclasında Milli Bayraq haqqında qərar qəbul etmiş, həmin qərarla yaşıl, qırmızı və mavi rənglərdən, aypara və səkkizbucaqlı ulduzdan ibarət milli bayrağın təsviri təsdiq edilmişdir.

Parlamentdə çıxış edən M.Ə.Rəsulzadə demişdir: "Müsəlman partiyaları arasında Azərbaycan ideyasında fikir ayrılığı yoxdur. Xalqın şüurunda Azərbaycan ideyası artıq möhkəmlənmişdir. Bir dəfə yüksələn bayraq bir daha enməz" ("Azərbaycan" qəzeti (rusca) N-59, 13 dekabr 1918-ci il).

Bakı Dövlət Universitetinin yaradılması haqqında Azərbaycan parlamentində M.Ə.Rəsulzadə və Fətəli xan Xoyski bir neçə dəfə çıxış etmiş, onlar təcili olaraq Bakıda Universitetin açılmasını parlamentdən tələb etmişdilər.

Parlament bir sıra qanunlarla yanaşı, Bakı Dövlət Universitetinin yaradılması və onun nizamnaməsinin təsdiq edilməsi haqqında 1919-cu il 29 aprel tarixli qərar qəbul etmişdir.

1919-cu ildə Paris Sülh Konfransına Azərbaycan Cümhuriyyətinin nümayəndə heyətinin üzvləri Ə.Topçubaşov, M.B.Hacınski, Ə.Şeyxülislamov və başqaları göndərilmişdir. Ermənilərin qərəzli siyasətinə baxmayaraq, Fransada onlar böyük çətinliklərlə üzləşsələr də, müxtəlif dövlətlərin başçıları və konfrans üzvləri ilə görüşərək məqsədlərinə nail olmuşdular.

1920-ci il yanvar ayının 11-də Paris Sülh Konfransı iştirakçı dövlətlərin Ali Şurası çox gərgin şəraitdə Qafqaz məsələsini müzakirə edir və İngiltərənin baş naziri Corc Kerronun təklifi ilə Azərbaycan, Gürcüstan və Ermənistan hökumətlərinin müstəqilliyini de-fakto kimi tanıdıqlarını elan edirlər.

Hazırlanan sənəd yanvarın 12-də Ali Şura üzvləri tərəfindən imzalanır. Azərbaycan Cümhuriyyətinin de-fakto tanınması barədə məlumatı alan Azərbaycan xalqı yanvarın 14-15-də bu hadisəni böyük bayram kimi qeyd edir.

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə Müstəqil respublikanın bütün ictimai həyatının inkişaf problemlərinə xüsusi diqqət yetirmişdir. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq və digər sahələrdə atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər Azərbaycan tarixində silinməz izlər buraxmışdır.

Xalq Cümhuriyyəti xalqın azadlığı, hüquq bərabərliyi ilə bağlı xeyli faydalı tədbirlər həyata keçirdi. Söz, mətbuat, yığıncaq azadlıqlarının həyata keçirilməsi də bu qəbildəndir. AXC, eləcə də milli dövlətçilik ənənələrinin bərpası və inkişafı sahəsində böyük rol oynadı.

1919-cu il 23 dekabrda dördüncü hökumət kabinəsi təşkil olunmuşdur. Hökumətə Nəsib bəy Yusifbəyli rəhbərlik etmişdir. Bu dövrdə G.Çiçerin ADR-in təslim olması haqqında Azərbaycana nota göndərir, lakin Azərbaycan Cümhuriyyətindən rədd cavabı alır. 1920-ci ilin aprelin 27-dən 28-nə keçən gecə Müstəqil Azərbaycan Cümhuriyyəti təcavüzlə devrildi və Azərbaycanda Sovet hakimiyyəti quruldu. Bu hakimiyyət 70 ildən bir qədər çox müddətdi öz hökmranlığını Azərbaycanda həyata keçirdi.

1991-ci ilin oktyabrın 18-də Azərbaycanda "Müstəqillik haqqında" Konstitusiya aktı qəbul olundu. 1991-ci ilin dekabrın 29-da Azərbaycanda keçirilən referendumda səsvermə hüququ olan əhalinin 95 faizi iştirak edərək ölkəmizin müstəqilliyinə, suverenliyinə səs verdi. Beləliklə, XX əsrin sonunda Azərbaycan xalqı ikinci dəfə yenidən öz müstəqilliyini elan etdi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 80 illik yubileyinin keçirilməsi haqqında 22 fevral 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin verdiyi xüsusi sərəncam respublikada böyük əks-səda doğurmuşdur. Müxtəlif peşə sahibləri, sənət adamları, bir sözlə, bütün xalq milli istiqlal tariximizə bu böyük qayğını və diqqəti ürəkdən alqışlamışlar.

Ulu öndərin ən layiqli siyasi varisi Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 90 illiyinin keçirilməsi haqqında 15 fevral 2008-ci il tarixli sərəncamında göstərilir ki, "Müasir Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa edərək Xalq Cümhuriyyətinin siyasi bazisi kimi bayrağını, himnini qəbul etmişdir".

Dövlət başçısının 16 may 2017-ci il tarixli sərəncamı ilə 2018-ci il may ayının 28-də Müstəqil Azərbaycan Dövlətinin yaranmasının 100 illik yubleyi yüksək səviyyədə qeyd ediləcəkdir.

Ölkə Prezidentinin 10 yanvar 2018-ci ildə imzaladığı 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunmasının isə mühüm beynəlxalq əhəmiyyətini qeyd etmək lazımdır. Hazırda AXC-nin yaranması bir çox dövlətlərdə qeyd olunmaqdadır.

**İsmayıl EYYUBOV,**
**dosent.**

# AXC-nin 100 illiyinə həsr olunmuş konfrans

Bu günlərdə Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetində **Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə** həsr olunmuş elmi-praktik konfrans keçirildi. Konfransı giriş sözü ilə açan universitetin rektoru, professor **Rahim Hüseynov** qonaqları və iştirakçıları salamladı. Salonda dövlət himni səsləndi.





Professor Rahim Hüseynov - dinlədiyiniz bu himn məhz 100 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi himndir, salonda dalğalanan bu bayraq məhz həmin illərdə ölkəmizin rəmzi kimi qəbul olunan bayraqdır - dedi.

Natiq dedi ki, Qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı müəyyən dövrlərində böyük imperiyaların tərkibinə qatılmaq məcburiyyətində olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır. Ölkəmizin bu gün dünya birliyində müstəqil dövlət kimi bərqərar olmasının, demokratik ənənələrin, insan hüquq və azadlıqlarının qorunmasının, söz və mətbuat azadlığına geniş meydan verilməsinin əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuşdur. Azərbaycan Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" kı sərəncamında müasir müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi adlandırdığını vurğuladı.

Konfransda xalqımızın və milli dövlətçiliyimizin tarixində özünəməxsus yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin mürəkkəb bir dövrdə meydana gəldiyi və çox çətin şəraitdə fəaliyyət göstərdiyi, ulu öndər Heydər Əliyevin AXC-nin fəaliyyətinə yüksək qiymət verdiyi qeyd olundu.

Konfransda çıxış edənlər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin düşünülmüş strategiyası müstəqil Azərbaycanı dünyanın inkişaf etmiş demokratik dövlətlərindən birinə, beynəlxalq aləmdə söz sahibinə çevirildiyini dedilər.

Plenar iclasın sonunda çıxış edən beynəlxaql Mahmud Kaşqari fondunun sədri Elxan Zal Qaraxanlı fondun yaranma tarixi və məqsədindən danışdı. Fondumuz beynəlxalq əhəmiyyətlidir. Məqsədimiz Azərbaycan və ümumtürk elmini, mədəniyyətini, bu millətin layiqli nümayəndələrini dünyada tanıtmaqdır. 2006-cı ildə təsis edilən bu mükafata Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəl, görkəmli Qazax şairi Oljas Süleymanov, Azərbaycandan akademik Abel Məhərrəmov, akademik İsa Həbibbəyli, professor İlham Rəhimli, xalq yazıçısı Çingiz Abdullayev və digər görkəmli şəxslər layiq görülmüşlər. Bu dəfəki mükafat Mahmud Kaşqarinin 1000 illik və Azərbaycan Xaql Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı təsis edilmişdir, bu mükafatın və medalın layiq görüldüyü görkəmli elm adamlarından biridə **Elm və Təhsil Mərkəzi "Təfəkkür" universitetinin rektoru, Azərbaycan elminin inkişafında xüsusi xidmətləri olan professor Rahim Hüseynovdur.**

Sonra isə Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev 11 aprel 2018-ci il Prezident seçkilərində Yeni Azərbaycan Partiyası Nərimanov rayon Mərkəzi Seçki komissiyasının Qərargahının qərarı ilə Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinə fəal iştirakına görə verilmiş Fəxri fərmanı universitetə təqdim etdi.

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**

# AXC-nin yaradılmasının 100 illiyinə həsr olunmuş estafet yarışları yekunlaşdı

**2018-ci il may ayının 22-də Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin, Gənclər və İdman Nazirliyinin Xəzər rayon idarəsinin birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinə həsr edilmiş estafet yarışları keçirilmişdir.**

Tədbirin əvvəlində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılma tarixi haqqında ətraflı məlumat verilmiş və bu əlamətdar hadisənin təkcə Azərbaycan üçün deyil, bütün müsəlman dünyası üçün mühüm əhəmiyyət kəsb etdiyi bildirilmişdir.

Xalq Cümhuriyyətinin varisi olan müasir, müstəqil Azərbaycan dövlətinin yaranmasında, möhkəmlənməsində və dünyada tanınmasında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri də minnətdarlıq hissi ilə qeyd edilmişdir.

Ümummilli Lider Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd



mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətləri, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılması xüsusi olaraq vurğulanmışdır.

Əsas məqsədi ölkə Prezidentinə, dövlətinə, xalqına sadiq, yüksək səviyyədə təlim və təhsil almış, fiziki və mənəvi cəhətdən sağlam, vətənpərvər Azərbaycan övladlarının yetişdirilməsi olan Xüsusi Məktəbin fəaliyyətə başlaması, formalaşması və onun zəruri tədris bazası ilə təchiz olunmasında Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı minnətdarlıqla qeyd olunmuşdur.

Rəsmi hissə başa çatdıqdan sonra müxtəlif estafet yarışları keçirilmiş, milli rəqslər, teatr tamaşalarından səhnəciklər nümayiş etdirilmiş və vətənpərvərlik ruhunda mahnılar ifa edilmişdir. Sonda estafet yarışının qalibləri təltif edilmişlər.

**Dövlət Sərhəd Xidmətinin**
**mətbuat mərkəzi.**

# Ulduz Şokolad Fabriki beynəlxalq sərgidə

Ulduz Şokolad Fabriki Çin Xalq Respublikasının Şanxay şəhərində 16-18




may 2018-ci il tarixində keçirilən "Sial China 2018" Beynəlxalq Ərzaq Sərgisində ölkəmizi "Made in Azerbaijan" brendi ilə təmsil edib.

**"Veysəloğlu" şirkətinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlham Məmmədovun** verdiyi məlumata görə Azərbaycanın stendi ticarət yarmarkasında izləyicilərin böyük marağına səbəb olub. Fabrik sözügedən beynəlxalq sərgidə ölkəmizi qənnadı sektorunda öz sözünü demiş, rəqabətqabiliyyətli, keyfiyyətli yeni çeşid məhsulları nümayiş etdirmişdir.

Dünyanın ən böyük ərzaq sərgilərindən hesab olunan "Sial China" Beynəlxalq Ərzaq Sərgisində iştirakçıların əksəriyyəti Azərbaycanın stendi qarşısında ayaq saxlayaraq məhsullarımız ilə yanaşı, ölkəmiz haqqında geniş məlumatlar əldə ediblər.

Qeyd edək ki, 2001-ci ildən fəaliyyətə başlamış Ulduz Şokolad Fabriki yerli bazarla yanaşı dünyanın 20-dən artıq ölkəsinə "Made in Azerbaijan" brendi ilə məhsul ixrac edir.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**



# Şərəfli ömür yolu



**Hər bir insanın həyat yolunu onun mənəvi dünyası, xarakteri müəyyən edir. Bəşər övladının mahiyyəti, mənəvi keyfiyyətləri həqiqətən də onun əməllərində, fəaliyyətində real təcəssümünü tapır. Dərk edilmiş məsuliyyətdən irəli gələn bu fəaliyyət həm də şəxsiyyət ucalığına qovuşmuş bu insanların cəmiyyətdəki layiqli mövqeyini, ictimai statusunu müəyyənləşdirir. Yəqin elə buna görədir ki, xeyirxah və alicənab insan kimi tanınaraq ömrün kamillik zirvəsinə yetişmək, bu dünyada iz qoymaq xoşbəxtliyi heç də hamıya nəsib olmur.**

Qocaman Şahdağın ətəyində səfalı, əsrarəngiz təbiətə malik ulu bir yaşayış məntəqəsində—Urva və ətraf rayonlarda böyük hörmət-izzət sahibi, kamil insan, sədaqətli dost olan insanlardan biri də Mayıl Bağırovdur. 70 il ömürdə, insanlığın zinəti sayılan saf və münis dəyərləri parlaq xarakterində yaşadıb, şəxsiyyətini, mənliyini, ad-sanını və həyat prinsiplərini qoruya bilib.

Mayıl müəllimin həyatında maraqlı anlar olduqca çoxdur. Bizim məqsədimiz bütün bunları sadalamaq deyil. Sadəcə, demək istəyirik ki, Mayıl müəllim həqiqətən də mənalı və şərəfli bir həyat yolu keçib. Hər bir şəxsiyyət üzləşdiyi mühitdən də əvvəl məhz ailə ocağında yetişir, formalaşır, gələcək həyat yolunu müəyyənləşdirməyə çalışır. İnsan xarakterinin formalaşmasında onun doğulub boya-başa çatdığı, suyunu-çörəyini daddığı, havasını udduğu ana təbiətin də rolu az deyil. Müdriklərimiz əbəs yerə "ot kökü üstə bitər" deməyiblər. Hələ yetkinlik yaşından Mail Bağırovun boya-başa çatdığı halal ailə, əhatə olunduğu saf mühit onu məhz kişi kimi yaşamağa, ömrü ləyaqətlə başa vurmağa, daim haqqa, ədalətə tapınmağa, mübariz olmağa səsləyib. Mayıl Bağırovun cəmiyyət üçün layiqli vətəndaş və şəxsiyyət kimi yetişməsində ilk növbədə valideynlərinin böyük rolu olub. Ailəsini dolandırmaq üçün hər bir əziyyətə qatlaşan atası Tağı kişi el arasında mərdliyi, sözünə bütövlüyü, yüksək insani keyfiyyətləri ilə tanınıb. Əmək adamı olub Tağı kişi. Briqadir, kolxoz sədri kimi çalışarkən xeyirxah əməl sahibi kimi yaddaşlara həkk olunub. Odur ki, bu gün də onu el-oba daim xatırlayır.

Mayıl müəllim deyir: "İndiyədək həyatda nə qazanmışamsa nəyə nail olmuşamsa ilk növbədə yaradanıma, dövlətimə, atama və anama borcluyam. Uzun illər rayonda sovxoz direktoru, meşə təsərrüfatı müəssisənin müdiri, XDS-də icrakom sədri, icra hakimiyyəti başçısının müavini, respublika Nazirlər Kabinetində baş məsləhətçi və başqa məsul vəzifələrdə işləmişəm. Atamı da bu bölgədə yaxşı tanıyıblar. Çünki atam insanların hafizəsində mehriban, gülərüz, qayğıkeş, səmimi bir insan kimi yaşayır. Heç yadımdan çıxmaz, 37 yaşında Qusar rayon Soveti İcraiyyə Komitəsinin sədri işlədiyim ilk günlərdə ucqar bir kəndə getmişdim. Ağsaqqalların yığışdığı yerdə camaatla görüşüb, özümü təqdim edəndən sonra onların gün-güzəranını xəbər aldım, əhval-ruhiyyəsi ilə tanış oldum. Məni adicə "rayispolkom" kimi qarşılayan ağsaqqallar Tağı kişinin oğlu olduğumu eşidəndə təzədən görüşüb hal-əhval tutdular, qucaqlayıb bağrına basdılar. Bax, həyatda belə anları yaşamaq insan üçün necə də şərəflidir. Mən onda qət etdim ki, atamın nəcib əməllərini, gözəl insani keyfiyyətlərini şərəflə davam etdirməliyəm. Bağırovlar nəslinin nüfuzunu qaldırmağın vacibliyi qəlbimə hakim kəsildi. Bunu isə göstərilmiş ehtimadı ləyaqətlə doğrultmaqla, daim məsuliyyət hissini, cavabdehlik missiyasını artırmaqla həyata keçə bilərdi. Burada düzgün mövqe, mənəvi təmizlik, halallıq, başlıcası isə dövlətçiliyə sadiqlik önəmli rol oynayırdı. "Nəfsə hakim olan dünyaya hakim olar" şüarı həyat devizimə çevrildi.

1984-cü ildə Qusar rayon partiya komitəsinin birinci katibi S.Hacıbalayev sovxoz direktoru Mayıl müəllimi yanına çağırıb yaxşı işinə görə onu "Əməkdə fərqlənməyə görə" medala təqdim etmək istədiyini bildirir. Mayıl müəllim təklif edir ki, ona verilməsi üçün nəzərdə tutulan medalın təsərrüfatda işləyən əmək qabaqcıllarından birinə çatması daha məqsədəuyğundur. Amma katib sözündə qəti idi və bir daha israr edir ki, mükafatla sovxoz rəhbəri təltif olunmalıdır. "Uzun mübahisə" isə mükafatın qabaqcıl kartofçu Feyzəbani Qaraxanovaya verilməsi ilə həll olundu.

M.Bağırovun bacarığı, təşkilatçılığı, səriştəli və qurucu rəhbər olması ilk dəfə 1981-ci ildə Qusarın ən iri toxumçuluq təsərrüfatı sayılan "Partiyanın XXIII qurultayı" adına sovxoza direktor təyin olunandan sonra üzə çıxdı. 32 yaşlı gənc burada çalışdığı 7 il ərzində doğma kəndini, rayonunu respublikada şöhrətləndirə bildi. Direktor kimi o vaxt çoxlarının qeyri-mümkün hesab etdiyi bir çox sosial problemlərin həllinə nail oldu. Urvaya qaz kəməri çəkdirdi, idarə binası, uşaq bağçası, hamam inşa olundu. Kəndin rayonda ilk dəfə mərkəzi abadlaşdırıldı. Böyük vətən müharibəsi iştirakçılarının şərəfinə əzəmətli abidə kompleksi ucaldıldı. Urva Palasa kəndində 10 yaşayış evi tikildi. Kəndə 4 kilometrlik yol çəkildi, əhalinin içməli suya olan tələbatının ödənilməsindən ötrü yeni kəmər istifadəyə verildi və s. Urva kəndinin demək olar, bütün tikinti-abadlıq işləri Mayıl müəllimin sovxoza rəhbərlik etdiyi vaxtlarda həyata keçirilib. Belə ki, iqtisadi cəhətdən möhkəmlənən sovxoz geniş tikinti meydanına çevrilmişdi.

Qısa müddətdə bir təsərrüfatda bu qədər tikinti-abadlıq işlərinin aparılması görünməmiş hadisə idi. Təsərrüfat Ümumittifaq "Cinstərəvəz" toxumçuluq sistemi tərkibinə daxil olduğundan iş təcrübəsi ilə artıq Sovet İttifaqı səviyyəsində maraqlanırdılar və nəhayət, təsərrüfat qazandığı nailiyyətlərə görə "Yüksək mədəniyyət və nümunəvi ictimai asayiş sovxozu" fəxri adına layiq görüldü. Azərbaycan KP MK-nın, respublika Nazirlər Sovetinin fəxri diplomu ilə mükafatlandırıldı.

1987-ci ildə M.Bağırov Qusar rayon XDS İcraiyyə Komitəsinin sədri kimi məsul vəzifəyə irəli çəkilir. Yeni vəzifədə də Mayıl müəllim yeni uğurlara imza atır. Mayıl müəllim o günləri belə xatırlayır: "Fəxr edirəm ki, mənim İcraiyyə Komitəsinin sədri işlədiyim dövrdə Qusarda yeni konserv zavodu işə salındı, avtovağzal tikildi, şəhərdə kanalizasiya sistemi quraşdırıldı. 1100 nəfərlik məktəb istifadəyə verildi. Qusardan kəndlərə gedən onlarca kilometr yola asfalt döşəndi, 17 kənddə dəyirman tikildi. Hil, Urva kimi iri kəndlərdə isə su təchizatı yaxşılaşdırıldı, ayrı-ayrı kəndlərdə qazlaşma işi sürətləndirildi, heyvandarlar üçün 30 yaşayış evi inşa edildi. "Hər kəsə fərdi mənzil" proqramının müəlliflərindən biri oldum. Əlbəttə, bu siyahını uzatmaq mümkündür, bununla hər bir quruculuq işini öz ayağıma yazmaq fikrində də deyiləm. Tale elə gətirmişdi ki, yaratmaq həvəsi heç də mənimkindən az olmayan o vaxtkı raykom katibləri Sultan Hacıbalayevlə, Ramazan Bədirovla, Asya xanım Manafova ilə çiyin-çiyinə çalışmaq səadəti mənə nəsib olmuşdu".

1969-cu ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu alim aqronom diplomu ilə bitirən M.Bağırov 1991-1994-cü illərdə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda ikinci ali təhsil almaqla politoloq ixtisasına da yiyələnmişdir. Kənd təsərrüfatının inkişafında xüsusi xidmətləri olduğu kimi, siyasi sahədə qazandığı biliklərdən bacarıqla istifadə edən Mayıl müəllim Sovet dönəminin son dövrlərində, fəzadlarla dolu "yenidənqurma" illərdə siyasi fəallığı ilə seçildi. Deyir ki, dünya şöhrətli siyasətçi Heydər Əliyev məktəbinin yetirməsi olan ziyalı kimi mən də baş verən proseslərdən kənarda qala bilməzdim. "Qayğı və tələbkarlıq" Heydər Əliyev idarəçilik məktəbinin əsas prinsipi idi. O məktəbin kadrı kimi gecə-gündüz ümumi iş üçün mübarizə aparırdıq. O vaxtlarda Nazirlər Kabinetində millətlərarası münasibətlər şöbəsində çalışırdım. Xalq Cəbhəsi deyilən iqtidarın hakimiyyəti dövründəki hərc-mərcliyin bir çox səbəbləri vardı. Ən dözülməzi isə cəbhə hakimiyyətinin siyasi sahədə buraxdığı kobud səhvlər idi. Hakimiyyətdəki səriştəsizlik, səmərəli təkliflərə, xeyirli məsləhətlərə məhəl qoyulmaması dövlətçiliyimizə ciddi zərbə vururdu. Nə yaxşı ki, anarxiya və xaosun ömrü uzun sürmədi. Heydər Əliyev kimi müdrik şəxsiyyətin hakimiyyətə qayıdışı ilə ölkə parçalanmaq, məhv olmaq təhlükəsindən qurtuldu. Milli münasibətlərdə tarazlıq, ahəngdarlıq yaradan qanunlar, milli, dini mənsubiyyətdən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqlarına təminat verən Konstitusiya qəbul olundu. Möhtərəm Prezidentimizin respublikanın ləzgi ictimaiyyətinin nümayəndələri ilə unudulmaz görüşü, Qusar ləzgi Dövlət Dram Tetarının, Sabir adına Bakı Pedaqoji Texnikumu Qusar filialının açılması, respublika radiosu ilə ləzgi dilində verilişlərin səsləndirilməsi, orta məktəblərdə doğma dilin tədris edilməsi süni milli problem yaradanları tərk-silah etdi.

Ulu öndər Heydər Əliyevin ideyalarını şərəflə davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin daxili və xarici siyasətini dəstəkləyən bütün qusarlılar kimi M.Bağırov da ölkəmizdə əmin-amanlığın, sabitliyin qorunması üçün əlindən gələni əsirgəmir.

Azərbaycanın müstəqillik qazanması ilə bağlı olaraq M.Bağırov bir sıra digər vəzifələrdə çalışmalı oldu. Lakin harada işləməsindən asılı olmayaraq, əvvəlki şövqlə, təşəbbüskarlıq və yaradıcı əzmi ilə fəaliyyət göstərdi. Bu keyfiyyətlər rayon meşə təsərrüfatının dözülməz vəziyyətə düşdüyündən və M.Bağırovun buraya müdir təyin olunandan sonra bir daha qabarıq nəzərə çarpdı. Meşələrin talan edilməsinin qarşısını alan direktor burada yeni nəzarət sistemi yaratdı. Baxımsız qalmış idarə binasını əsaslı təmir etdirib, kifayət qədər texnika aldı. Yardımçı təsərrüfatın fəaliyyətini canlandırdı və ilk dəfə olaraq tingçilik təsərrüfatı yaratdı. Yaşıllaşdırma tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar həmin təsərrüfatdan rayonun idarə və təşkilatlarına, təhsil ocaqlarına təmənnasız olaraq minlərlə müxtəlif növ ting verildi. M.Bağırovun təşəbbüsü ilə Qusarda nəzərdə tutulduğundan üçqat çox yeni meşələr salındı. Onun Qusar, Hil və Həzrə meşəliklərini yaratması meşələrə nəzarətin, həm də əhaliyə xidmətin keyfiyyətini yaxşılaşdırdı.

M.Bağırovun təşəbbüsü ilə rayonda ağac və kol cinslərinin yetişdirilməsi üçün ayrıca təcrübə sahəsi yaradıldı. Burada respublikada ilk dəfə olaraq Şərq çinarı, sərv, Eldar şamı, küknar, kolvarı jasmin yetişdirildi. Qusar şəhəri ətrafında Həzrə, Girig, Uqur və başqa kəndlərdə çay sahillərinin məhsuldar torpaqları yuyub aparan sel sularına qarşı dərin və möhkəm köklərə malik ağaclardan xüsusi qoruyucu zolaqlar yaradıldı. Belə misalları çox çəkmək olar. Yenilikçi olması ilə sevimli xalqın mənafeyini uca tutan, halal zəhməti ilə ata yolunu şərəflə davam etdirən M.Bağırovun gördüyü işlər rəğbətlə qarşılanmışdır.

Mayıl Bağırovun şərəfli həyat yolu mənası, şəffaflığı, vətənə, xalqa tükənməz məhəbbəti ilə gənc nəslə nümunədir.

**Müşfiq MİRZƏ,**
**"Respublika".**

# Azərbaycan pambıqçılığı Cümhuriyyətimizin 100-cü ildönümündə

**Qeyd etdiyim kimi, 1970-ci illərdə Azərbaycanda pambıqçılığın sürətli inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. O, 1969-cu ildə hakimiyyətə gələndə Azərbaycanda 300 min ton pambıq tədarük edilirdi. Onun dövründə bu rəqəm 3 dəfə artmışdır və 1981-ci ildə Azərbaycanda bir milyon ton pambıq yığılmışdır.**

*(Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə pambıqçılığın inkişafına dair bu il martın 26-da Bərdədə keçirilən respublika müşavirəsində dövlət başçısının giriş nitqindən)*

***Bu gün 100-cü ildönümünü böyük fəxr və iftixarla qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti iki ildən də az yaşamasına rəğmən, milli iqtisadiyyatın bərpası, qurulması və inkişaf etdirilməsi, xarici iqtisadi əlaqələrin yaradılması, ərzaq təhlükəsizliyi və s. istiqamətlərdə həqiqətən də böyük işlər görə bilib. Şərqdə ilk demokratik və yeganə parlament quruluşlu dövlət olan, Avropanın ilk türk respublikası kimi tanıdığı AXC bütün yeraltı sərvətlərini, mədənlərini, dəmiryolu, işıq, teleqraf və s. sahələrini əsasən dövlət mülkiyyəti kimi nəzərdə tuturdu. Amma xüsusi, şəxsi, səhmdar, bələdiyyə kimi mülkiyyət növləri də gündəmdə idi.***

***Cümhuriyyətin iqtisadiyyatından qısa söhbət açsaq, deməliyik ki, onun bel sütunu neft idi. Məsələn, 1918-ci ildə 2,96 milyon ton neft istehsal edildiyi halda, bir il sonra həmin rəqəm 3,6 milyon tona çatdırıldı. AXC dövründə büdcə gəlirlərinin təxminən 30 faizi məhz bu sahədən idi. Cümhuriyyət neft sənayesini ağır vəziyyətdən çıxardı və onu inkişaf etdirməyə başladı. Bakı-Batum neft kəməri bərpa olundu.***

***Neftin iqtisadiyyatda hegemon roluna rəğmən, Azərbaycan dünyada aqrar, daha doğrusu, heyvandarlıq və əkinçilik ölkəsi kimi tanınırdı. Dağ və dağətəyi bölgələri, geniş düzənləri, münbit torpaqları, zəngin iqlim qurşaqları, ehtiyat su mənbələri, zəhmətkeş insanları bu ölkəni əsrlər boyunca məhz belə tanımışdır.***

***Cümhuriyyət qurucuları da bunu gözəl bildiyindən və qiymət verdiklərindən kənd təsərrüfatının inkişafı onlar üçün prioritet idi. Onlar torpaq islahatları keçirilməsinin zəruriliyini yaxşı dərk edirdilər. Hətta parlamentdəki Müsavat fraksiyası və Əkinçilik və Dövlət Əmlakı Nazirliyi ayrı-ayrılıqda qanun layihələri də hazırlamışdılar. Bu iki layihənin oxşar (ümumi) cəhəti bu idi ki, tərəflər torpaq islahatının aparılmasını zəruri sayır, torpaqsız və aztorpaqlıları torpaqla təmin etməyi qarşıya məqsəd qoyurdular. Amma fikir ayrılıqları da vardı. Müsavat fraksiyası hər kəndliyə 75 desyatin (bir desyatin 1,09 hektardır), həm də əvəzsiz olaraq torpaq verməyi təklif edirdi. Nazirlik isə torpağı müəyyən əvəz müqabilində, amma müxtəlif ölçüdə (miqdarda) verilməsi layihəsini irəli sürürdü. Lakin AXC-nin buna zaman fürsəti olmadı. 1920-ci ilin aprelində Azərbaycan bolşeviklər tərəfindən istila olundu.***

***AXC dövründə kənd təsərrüfatının əsas qolları (heyvandarlıq və əkinçilik) idi. Ölkədə təxminən 1 milyon baş iribuynuzlu, 1,5 milyon baş xırdabuynuzlu malqara vardı. Əkinçilikdə ənənəvi sahələrlə (taxılçılıq, üzümçülük və s.) yanaşı, pambıqçılıq da inkişaf etməkdə idi. Əsasən XIX əsrin 20-30-cu illərindən respublikamızda becərilməyə başlayan bu sahə çar Rusiyası Azərbaycanı işğal etdikdən sonra yeni mərhələyə qədəm qoydu. Amma o, hələ əl əməyinə əsaslanırdı. Lakin XX əsrin ilk illərindən isə Azərbaycanda pambıqçılıq müəssisələri yaradıldı, yeni sənayeləşmə dövrü meydana gəldi. Bunlar indiki anlamda sex təsəvvürü yaradan kiçik pambıq zavodları (Bakı, Yelizavetpol, (Gəncə), Naxçıvan, Ağdaş, Göyçay, Ağdam, Cavad qəzası və s. bölgələrdə) idi. Hərəsində 10-15, ən çoxu 20 nəfər çalışırdı. 1901-ci ildə Zığ yaxınlığında H.Z.Tağıyevin Cənubi Qafqazın ən böyük pambıq-parça toxuma müəssisəsini işə salması sahənin inkişafında müstəsna rol oynadı.***

***AXC dövrü pambıqçılığın vəziyyəti (əkin sahəsi, istehsalı, müəssisələri və s.) haqqında əlimizdə dəqiq statistik rəqəmlər olmadığından biz bu sahəni ətraflı əhatə edə bilmirik. Çünki həmin dövr Sovet dönəmində tədqiq edildiyindən, Sovet ideologiyası ədalətli mövqeyə, münasibətə, təhlilə imkan verməyib. Görünən odur ki, pambıqçılığın AXC dövründəki vəziyyətini, inkişafını yenidən araşdırmağa ehtiyac var.***

***Amma qəti bildiyimiz odur ki, AXC dövründən cəmi 55-60 il sonra - ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərliyi zamanında pambıqçılıq iqtisadiyyatımızın ən önəmli və strateji sahələrindən birinə çevrildi.***

Azərbaycan qədim əkinçilik ölkəsi olsa da, lakin təəssüf ki, ötən əsrin 60-cı illərində respublikamızın bu təbii sərvətlərindən və potensialından səmərəli istifadə olunmurdu. Respublika iqtisadiyyatı və onun əsas sahələrindən olan kənd təsərrüfatı tənəzzülə uğramışdı. Məsələn, təkcə bir faktı demək kifayətdir ki, 60-cı illərin sonlarında hər hektardan cəmi 10,7 sentner dənli bitki, 15,7 sentner pambıq, 119 sentner tərəvəz, 39,4 sentner üzüm, 13,8 sentner meyvə və s. istehsal olunmuşdu.

Heydər Əliyev belə bir ağır iqtisadi dövrdə respublikaya rəhbərlik etməyə başladı. Bu, Azərbaycan KP MK-nın iyul (1969-cu il) plenumunda baş verdi. İnsanların rəhbərlərə olan sönmüş ümidlərini qaytarmaq, iqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında iqtisadi geriliyə son qoymaq, inkişaf yollarını axtarmaq lazım idi. Güclü daxili enerjiyə, yüksək təşkilatçılıq qabiliyyətinə malik Heydər Əliyev respublikanın düşmüş olduğu böhranlı vəziyyəti tez bir zamanda dərindən təhlil etdi, daxili ehtiyat mənbələrini aşkarladı və ondan düzgün, səmərəli istifadə yollarını müəyyənləşdirdi.

Ümummilli lider Heydər Əliyev SSRİ rəhbərliyini, Sov.İKP MK-nı, Siyasi Büro üzvlərini Azərbaycanda kənd təsərrüfatını inkişaf etdirməyə yönəldə və onları bu zərurətə inandıra bildi. 1970-ci il iyulun 23-də Sov.İKP MK və SSRİ Nazirlər Soveti, "Azərbaycan SSR-in kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında", 1975-ci il iyulun 9-da "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında", 1979-cu il fevralın 22-də isə "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" dalbadal 3 olduqca mühüm qərar qəbul etdi.

Heydər Əliyevin məqsədyönlü, gərgin əməyi sayəsində kənd təsərrüfatında nəinki geriliyə son qoyuldu, hətta 80-ci illərdə Azərbaycan keçmiş SSRİ-nin ən qabaqcıl respublikalarından birinə çevrildi.

1982-ci ildə 1969-cu ilə nisbətən taxıl istehsalı 2,1 dəfə, pambıq və bostan məhsulları (ayrı-ayrılıqda) 1,9 dəfə, tərəvəz 2,5 dəfə, meyvə və giləmeyvə 6,6 dəfə, çay 2,8 dəfə, üzüm 7,7 dəfə, kartof 1,6 dəfə artmışdı. Amma müstəqilliyimizin ilk illərində biz pambıqçılığın inkişafına ciddi fikir verə və qayğı göstərə bilmədik. Bunun da əsaslı səbəbi var idi, biz həmin dövrdə respublikada ərzaq problemi ilə üzləşmişdik. Çünki Sovetlər dövründə keçmiş SSRİ "planlaşdırması" qəsdən elə qurulmuşdu ki, Azərbaycanın ərzaq tələbatı Rusiya, Ukrayna, Belarus və s. müttəfiq respublikalardan asılı idi. Artıq SSRİ dağılmış, iqtisadi əlaqələr kəsilmişdi, biz Azərbaycan olaraq ərzaq problemini özümüz həll etməli idik.

Lakin son illər dövlət başçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə pambıqçılıq bərpa edilərək inkişaf etdirilməsinə başlanıb. Bu, əsası ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan pambıqçılığa önəm vermək, onu aqrar bölmənin prioritet sahəsinə çevirmək strategiyasının müasir dövrümüzdə uğurla davam etdirilməsidir. 2016-cı il sentyabrın 17-də Sabirabadda keçirilən pambıqçılığın inkişafına dair respublika müşavirəsi ölkəmizdə bu sahənin bərpa edilməsində müstəsna əhəmiyyət daşıdı. Dövlət başçısı cənab İlham Əliyev müşavirədəki giriş nitqində dedi:

"1980-ci illərdə ulu öndər Sabirabada və pambıqçılıqla məşğul olan digər rayonlara səfər edərkən məni də özü ilə aparırdı. Mən də o illərdə dəfələrlə onunla bərabər Sabirabadda olmuşam, o müşavirələrdə iştirak etmişəm. Pambıq tarlalarında, tarla düşərgələrində pambıqçılarla görüşü zamanı onunla bərabər olmuşam. Yəni, o xatirələr mənim ürəyimdə yaşayır və bu gün daha da aydın görünür ki, ulu öndər Heydər Əliyev nə qədər uzaqgörən və xalqa bağlı olan bir insan idi".

Növbəti il martın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Saatlıda keçirilən pambıqçılığın inkişaf məsələlərinə dair respublika müşavirəsi isə sahənin qarşısında konkret vəzifələr qoydu. Dövlət başçısı müşavirədəki yekun nitqində qeyd etdi ki, bu il 22 rayonda pambıq əkiləcək. Mənə verilən son məlumata görə, əkin sahələr 136 min hektar olacaq.

Dövlətimizin gördüyü ardıcıl tədbirlər sayəsində ölkəmizdə pambıqçılıq artıq bərpa edilib və inkişaf etməyə başlayıb. 2016-cı ildə 50,8 min hektar sahədə çiyid səpilərək 89,4 min ton "ağ qızıl" istehsal olundu. Ötən il isə bu rəqəmlər müvafiq olaraq 136,4 min hektara və 207,6 min tona çatdırıldı.

"Ağ qızıl" tədarükündə ötən il Saatlı rayonu əməkçiləri birincilik əldə edərək 25,8 min ton məhsul toplamışlar. Biləsuvar rayonu yarışda II yerə (24,8 min ton), Bərdə rayonu isə III yerə (22,5 min ton) yiyələnmişlər. Ağcabədi pambıqçıları 20,5 min ton, Sabirabad rayonu isə 18,2 min ton "ağ qızıl"la önəmli yerə sahib olmuşlar.

Şübhəsiz, həmin rayonlarda pambıqçılığın inkişafı işsizliyin aradan qaldırılmasına və sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə xidmət edir. Bu isə Heydər Əliyevin uzaqgörən ideyalarının müasir dövrümüzdə davam və inkişaf etdirilməsinin bariz nümunəsidir.

**Nəriman CAVADOV,**
**"Respublika".**

*"İqtisadiyyat Nazirliyi tərəfindən KİV nümayəndələri arasında elan edilmiş "Azərbaycan Xalq Cümhuriyyəti dövrünün iqtisadiyyatı" mövzusunda müsabiqəyə təqdim edilir".*

# Azərbaycanda ilk dəfə olaraq Rusiya istehsalı olan helikopterlərin əsaslı təmiri həyata keçirilmişdir

**"Silk Way Helicopter Services" şirkəti yanında Helikopterlərin Əsaslı Təmiri üzrə Servis Mərkəzi ilk dəfə olaraq Mi-8AMT/MTV tipli vertolyotların əsaslı təmirini həyata keçirmişdir.**

Azərbaycanda belə mərkəzin yaradılması haqqında qərar 2016-cı ildə Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi ("Azerbaijan İnternational Defence Exhibition" - ADEX) zamanı verilmişdir.

Mərkəzin fəaliyyətinin birinci mərhələsi olaraq 6 noyabr 2017-ci il tarixindən etibarən "SHS" aviaşirkətinin baza aeroportu olan Zabrat Hava Limanında Rusiya istesalı olan Mi-8AMT/MTV vertolyotlarının əsaslı təmirinə başlanılmışdır. Təmir işləri Rusiyanın "356" saylı aviatəmir zavodunun (Engels şəhəri) mütəxəssisləri ilə birgə aparılmışdır.

Mi-8AMT/MTV vertolyotların təmiri "Silk Way Helicopter Services" MMC-nin mütəxəssisləri ilə birgə yüksək peşəkarlıqla həyata keçirilmişdir.

Avia təmir zavodunun təmir təlimatına əsasən vertolyot sökülmüş və əsas aqreqatlar təmir olunması üçün 356 saylı zavoda göndərilmişdir. (Gələcəkdə bu avadanlıqların təmir edilməsi vertolyotların əsaslı təmirinin tərkib hissəsi kimi Bakı şəhərində nəzərdə tutulub). Həmçinin vertolyotun füzelyajı və elekto juqutlar defektasiya edildikdən sonra təmir edilmişdir.

Hava gəmisinin təmiri zamanı istifadə olunan alətlər, xüsusi aqreqatlar, YSM və s. kimi məsrəf materiallar tam şəkildə "Silk Way Helicopter Services" tərəfindən təchiz edilmişdir.

Belə bir mərkəzin yaradılması Azərbaycanın aviasiya sahəsinin yeni inkişaf mərhələsidir. Bu təkcə yerli məqsədlə deyil, eyni zamanda aviasiya bazarının xarici iştirakçılarını cəlb etmək üçün aviasiya texnikası təmirinin sonrakı mərhələsinə təkan verir.

**"Silk Way Helicopter Services" mətbuat xidməti**

# Düzgün qidalanma sağlam həyatın vacib şərtidir




Azərbaycan Tibb Universitetinin Qidalanma və kommunal gigiyena kafedrasının məsləhətçi professoru, tibb elmləri doktoru Maqsud Qasımov, Əməkdar müəllim, tibb üzrə elmlər doktoru, dosent İbrahim Əhmədov, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru İmran Abdullayev, "Azərsun Holdinq"in Elm və Araşdırma departamentinin müşaviri İsmayıl Həsənovun birgə ərsəyə gətirdikləri, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin qərarı əsasında dərs vəsaiti kimi təsdiq edilmiş "Süd və süd məhsulları" kitabı ölkəmizdə süd məhsullarının istehsalı və ondan istifadə qaydalarına həsr olunub.

Düzgün qidalanma insan sağlamlığında mühüm rol oynayır. Sağlam qidalanmanın təməlində isə qida məhsullarının istehsal prosesinin düzgün təşkil olunması dayanır. Əhaliyə beynəlxalq standartlara cavab verən yüksək keyfiyyətli, ekoloji təmiz qida məhsulları təqdim etməyi qarşısına məqsəd qoyan və bunların insan sağlamlığına təsirinə həmişə önəm verən "Azərsun Holdinq" şirkətinin çoxşaxəli fəaliyyətində süd məhsullarının istehsalı xüsusi yer tutur. Belə ki, 2013-cü ildən istifadəyə verilən Kürdəmir süd emalı zavodunda istehsal edilən bütün süd məhsulları 100 faiz inək südündən əldə edilərək müasir texnologiyalarla sterilizə edilir və gigiyenik qaydalara tam əməl olunaraq tetrapak qutularda qablaşdırılır. Şirkətin istehsal etdiyi saf, təmiz, təbiətdən alınmış bütün məhsulları özünün yüksək göstəricilərinə görə ən mötəbər təşkilatların, sərgi və festivalların sertifakatlarına, mükafatlarına layiq götürülmüşdür. Holdinqin qida istehsalı müəssisələrinin potensialı nəinki Azərbaycanın, eyni zamanda region dövlətlərinin də bu sahədə tələbatını ödəməyə imkan verir. Bu da Azərbaycanın ixrac potensialını artırmaqla yanaşı, həm də ölkəmizin qida təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır.

Bu baxımdan çoxçeşidli, yüksəkkeyfiyyətli süd və süd məhsulları hazırlayan, istehsal sahələrini gündən- günə genişləndirən "Azərsun Holdinq" şirkəti kitabın işıq üzü görməsində yaxından iştirak etmiş və öz dəstəyini göstərmişdir. Kitab şirkətin çoxşaxəli, yüksək keyfiyyətə təminat verən fəaliyyətinə gözəl nümunədir.

Kitabda insanların, xüsusilə də uşaqların və ahıl, qocaların gündəlik qidalanmasında süd və süd məhsullarından istifadə etmə qaydalarından bəhs olunur. Burada süd və süd məhsullarının xüsusiyyətləri, onların tərkibində ayrı-ayrı qida maddələrinin olması, bu məhsullardan hazırlanan yeməklərin pəhriz dəyəri, müxtəlif xəstəliklərdə müalicəvi qidalanmanın rolu və s. haqqında geniş söhbət açılır.

Eyni zamanda, süd və süd məhsullarından pansionatlarda, profilaktoriyalarda, sanatoriya və kurort müəssisələrində, orta ümumtəhsil müəssisələrində, ictimai-iaşə obyektlərində və ev şəraitində istifadə olunmasına dair dəyərli məsləhətlər kitabda öz əksini tapmışdır. Kitab eləcə də süd və süd məhsullarının insan sağlamlığında faydası, xəstəliklərin profilaktika və müalicəsində əhəmiyyətindən bəhs edir. Mənbədə həm də insan orqanizminin süd məhsullarına olan tələbatı, südün insanların sağlam yaşamasında rolu, müalicəvi xüsusiyyətlərindən geniş məlumat verilmişdir.

Təkcə uşaqların deyil, böyüklərin də sümük və əzələ möhkəmliyinin təmin olunması üçün südün insan orqanizminə vacibliyindən bəhs olunan dərs vəsaitində süd məhsulları vasitəsilə hər bir insanın gündəlik kalsium və fosfora olan tələbatının maksimum ödənildiyi, südün tərkibində orqanizmin normal inkişafını təmin edən bütün maddələrin optimal nisbətdə olduğu göstərilir.

Mənbədə süd məhsullarının növləri, onların alınma yolları, südün faydalı və zərərli xüsusiyyətləri, müxtəlif heyvanların südünün xarakteristikası və s. haqqında ətraflı məlumat almaq mümkündür. Bununla yanaşı, müəlliflər kitabda dövlətimizin ölkə səhiyyəsinin inkişafına göstərdiyi diqqət və qayğısından da söz açmış, "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya"nın qəbul edilməsini bu diqqət və qayğının bariz nümunəsi olaraq qiymətləndirmişlər. Qeyd etmişlər ki, Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2015-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş Strategiya ölkə səhiyyəsinin inkişafına mühüm töhfə verəcəkdir.

Strategiyanın əsas məqsədi ölkədə həyata keçirilən tədbirlər vasitəsilə əhalinin sağlamlığının yaxşılaşdırılmasına, o cümlədən QİX ilə bağlı vaxtından əvvəl ölüm hallarının mümkün qədər azaldılmasına nail olmaqdır. Bunun üçün ölkədə QİX ilə mübarizə tədbirlərinin tənzimlənməsi və bu sahədə profilaktik idarəetmənin təkmilləşdirilməsi gərəkdir. Strategiyadan irəli gələn vəzifələri yerinə yetirmək üçün təsdiq edilmiş Fəaliyyət Planında həyatımızın, cəmiyyətimizin bütün sferaları, səhiyyə sisteminin maksimum xidmət imkanları nəzərə alınmışdır.

İnsanların sağlamlığının qorunması üçün isə ilk olaraq ölkədə yüksəkkeyfiyyətli qida məhsullarının istehsalı mühüm şərtdir. Bu, respublikamızda ən böyük qida istehsalçısı, hər zaman insan amilini əsas tutan "Azərsun Holdinq" tərəfindən uğurla həyata keçirilir. Bütün bunlar bu gün oxuculara təqdim etdiyimiz kitabda geniş şəkildə öz əksini tapmışdır.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

*Baş Prokurorluq:*

# Lerikdə 75 ağacın qanunsuz kəsilməsi ilə bağlı cinayət işi başlanılıb

**Ekoloji mühitə ziyan vurulması, ağacların və digər yaşıllıqların qanunsuz kəsilməsi, həmçinin ekoloji tarazlığın pozulmasına yönəlmiş qanunsuz hərəkətlərə, eləcə də öz qanunazidd əməlləri ilə dövlətin ekoloji sağlamlığın yaxşılaşdırılmasına və ətraf mühitin mühafizəsinə yönələn genişmiqyaslı tədbirlərə kölgə salan şəxslərə qarşı ən ciddi mübarizə tədbirləri davam etdirilir.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Lerik Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin Vizəzəmin meşəbəyliyinin ərazisində yaşköküstə müxtəlif cinsli və diametrli 75 ağacın qanunsuz kəsilməsi nəticəsində təbiətə xeyli miqdarda - 6590 manat məbləğində ziyan vurulması ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyindən daxil olmuş material Baş Prokurorluqda araşdırılıb.

Faktla bağlı Azərbaycan Respublikası baş prokurorunun birinci müavini tərəfindən mayın 18-də Cinayət Məcəlləsinin 259.1-ci (qanunsuz ağac kəsmə) maddəsi ilə cinayət işi başlanılaraq ibtidai istintaqın aparılması Lerik Rayon Polis Şöbəsinin istintaq qrupuna tapşırılıb.

Hazırda qanunsuz ağac kəsmə faktı ilə bağlı başlanmış cinayət işi üzrə təqsirkar şəxslərin dairəsinin tam müəyyənləşdirilərək cinayət məsuliyyətinə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bütün fiziki və hüquqi şəxslərə qanunsuz ağac kəsilməsi hallarına yol verməmələri tövsiyə edilir və belə hallara yol verən şəxslər barəsində qanunla nəzərdə tutulmuş qaydada ən ciddi cəza tədbirləri görüləcək.

**AZƏRTAC**

# Əcnəbi kibercinayətkarlar ifşa olunub və oğurlanmış milyonlarla vəsait dondurulub

**Bank məlumatlarının və əməliyyatlarının elektronlaşdığı müasir dövrdə informasiya texnologiyalarından mütəşəkkil istifadə edilməklə banklarda olan vəsaitlərin ələ keçirilməsi meyillərinin də artması müşahidə olunur.**

Dövlət Təhlükəsizliyi Xidmətinin və Maliyyə Bazarlarına Nəzarət Palatasının mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, bu ilin mayında müxtəlif formal şirkətlər yaradılmaqla və onların bank hesabları açılmaqla Azərbaycan banklarından alınan POS-terminallardan istifadə etməklə kibercinayətkarlıq yolu ilə əcnəbilərin bank hesablarından milyonlarla vəsaitin yerli banklardakı qeyd olunan hesablara, həmin hesablardan isə MDB ölkələrindəki müxtəlif hesablara köçürülməsi yolu ilə talanması, yerli banklara əsassız daxil olmuş vəsaitlərin dəyərinin qeyd olunan xarici vətəndaşlara qaytarılması nəticəsində yerli banklara maddi ziyan vurulması barədə məlumatlar daxil olub.

Həmin məlumatlar əsasında Dövlət Təhlükəsizliyi Xidmətində başlanılmış cinayət işi üzrə Maliyyə Bazarlarına Nəzarət Palatası ilə birgə həyata keçirilmiş təxirəsalınmaz tədbirlər nəticəsində bu cinayət əməllərini törətməkdə şübhəli bilinən Rusiya Federasiyasının vətəndaşı Lunin Pavel Sergeyeviç və Ukrayna vətəndaşı Serb Andrii Borisoviç müəyyən edilərək saxlanılıb. Onlara məxsus bank hesablarında olan vəsaitlər müəyyən edilərək dondurulub, müvafiq əməliyyatların həyata keçirilməsinin qarşısı alınıb.

Lunin Pavel Sergeyeviç və Serb Andrii Borisoviç Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177-ci (oğurluq) və 272-ci (kompüter məlumatlarını qanunsuz ələ keçirmə) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilib, barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Dövlət Təhlükəsizliyi Xidməti və Maliyyə Bazarlarına Nəzarət Palatası ölkə ərazisində fəaliyyət göstərən banklar tərəfindən cari fəaliyyətin, elektron bankçılığın qanunsuz və əsassız müdaxilələrdən müdafiə olunan şəkildə qurulmasının diqqətdə saxlanılmasını vacib hesab edir.

**AZƏRTAC**


## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti

*Mətbəx avadanlıqlarının satınalınması məqsədilə*

## AÇIQ TENDER ELAN EDİR

| Tender 2 (iki) lot üzrə keçirilir: | | İştirak haqqı (manatla) |
|---|---|---|
| Lot 1 | Elektrik və digər mətbəx avadanlıqları | 80 |
| Lot 2 | İri həcmli elektrik çörəkbişirmə sobası və dönər arabası | 100 |

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Zərifə Əliyeva küçəsi-30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasından ala bilərlər.

**Hesab:** Dövlət Xəzinədarlığı Agentliyi kod: 210005; VÖEN 1401555071; M/h: AZ41NABZ01360100000000003944; S.W.İ.F.T BİK: CTREAZ22; Dövlət Sərhəd Xidməti VÖEN 1700360581; H/h: AZ19CTRE00000000000002388501; XHK 142319 2388501(2310) fond 3

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Əlaqə telefonu: (Tel: (012) 498-01-36)**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından və Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondundan arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender təklifləri Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır *(xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri *(tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla)* 29 iyun 2018-ci il saat 17:00-dək, tender təklifi, bank zəmanəti və iş qrafiki isə möhürlənmiş ikiqat zərfdə 10 iyul 2018-ci il tarixə saat 16:00-dək Dövlət Sərhəd Xidmətinin Tender Komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təkliflərində sərfəli qiymət və yüksək keyfiyyətlə qiymətləndirilən meyarlara üstünlük veriləcəkdir.

İddiaçıların təklifləri 11 iyul 2018-ci il tarixdə, saat 15:00-da Bakı şəhəri, Zərifə Əliyeva küçəsi-30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasında açılacaqdır.

İddiaçı və ya onun notarial qaydada təsdiqlənmiş sənədlə müvəkkil etdiyi şəxslər tender prosedurunun açılışında iştirak edə bilərlər.

**Dövlət Sərhəd Xidmətinin Tender Komissiyası.**


## DÜNYA BUGÜN

*FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR*

### TRAMP KİM ÇEN ININ TƏHLÜKƏSİZLİYİNƏ ZƏMANƏT VERİR



ABŞ prezidenti Donald Tramp Şimali Koreya lideri Kim Çen Inla planlaşdırılan görüşünü şərh edərkən deyib: "Nələr olacağını görəcəyik. Ola bilər biz həmin tarixdə görüşməyək. Bu, daha sonra da baş verə bilər". Bu barədə "APA" Türkiyə mətbuatına istindən məlumat yayıb.

Bununla əlaqədar bir çox müzakirələrin aparıldığını, görüşün keçiriləcəyi tarixi yaxın zamanlarda açıqlayacağını diqqətə çatdıran Donald Tramp ətraflı məlumat verməmək istəməyib.

Bununla yanaşı, Donald Tramp qeyd edib ki, əgər razılaşma əldə olunarsa, bundan həm Cənubi Koreya rəhbərliyi, həm də Kim Çen In razı qalacaq.

Eyni zamanda, Donald Tramp görüş baş tutacağı təqdirdə Kim Çen Inın təhlükəsizliyinə zəmanət verdiyini də vurğulayıb.

Verilən xəbərə görə, ABŞ hərbi donanması Donald Tramp və Kim Çen Inın görüşü zamanı Sinqapur sahillərində lövbər salacaq. Bu barədə ABŞ hərbi dəniz qüvvələri məlumat yayıb.

Donanma gələn həftənin çərşənbə axşamı Yaponiya sahillərindən hərəkət edərək Şərqi Asiya ölkəsində keçiriləcək görüş zamanı Şimali Koreya və ya başqa bir ölkənin hücum ehtimalına qarşı ehtiyat tədbirləri çərçivəsində hərəkət edəcək.

Donanma artıq hazırlıq işlərini yekunlaşdırır və tam döyüş vəziyyətinə gətirilir. Həmçinin qeyd edilir ki, lazım gələrsə, ABŞ-ın 7-ci donanmasının heyətində olan gəmilər də ehtiyat məqsədilə Sinqapur sahillərinə gətirilə bilər.

Qeyd edək ki, Donald Tramp mayın 23-də Ağ Evdə Cənubi Koreya lideri Mun Çje İni qəbul edib və onunla bir sıra məsələləri müzakirə edib.

### DANİMARKA VƏ İSVEÇ RUSİYAYA QARŞI HƏRBİ GÜCLƏRİNİ BİRLƏŞDİRİR



Danimarka və İsveç Rusiyaya qarşı hərbi güclərini birləşdirmək niyyətindədirlər. "APA"nın məlumatına görə, Danimarkanın müdafiə naziri Klaus Hyort ilə isveçli həmkarı Peter Hultqvist danışıqlardan sonra bu barədə qərar veriblər.

Verilən xəbərə görə, razılaşmanın ilkin mərhələsində hava və dəniz qüvvələri kəşfiyyat əməliyyatları çərçivəsində birgə hərəkət edəcək və Rusiya hərbi təyyarələrinin hücumuna məruz qaldıqda qarşı ölkədən icazə almadan onun hava məkanına daxil olacaqlar.

Həmçinin razılaşmada Baltik dənizində iki ölkəyə təhdid xarakterli əməliyyatlar keçirən Rusiyanın sualtı qayıqlarına qarşı da birgə hərəkət etmək barədə qərar qəbul edilib. Bunun üçün hər iki ölkə dənizlərdə birgə müşahidələr aparacaq.

Qeyd edək ki, 22 may tarixində İsveç hökuməti 4,8 milyon evə "müharibə təlimatları" başlıqlı bildiriş göndərib və vətəndaşların hücum əsnasında görəcəkləri təhlükəsizlik tədbirləri barədə məlumatlandırılıb.

### FEYSAL MİKDAD: RUSİYA VƏ İRAN SURİYADA QALMALIDIR



"Rəsmi Dəməşqin gündəmində İran hərbçilərinin və "Hizbullah"ın Suriya ərazisindən çıxarılması məsələsi yoxdur". "APA"nın Rusiya mətbuatına istinadən verdiyi məlumata görə, bu sözləri Suriyanın xarici işlər nazirinin müavini Feysal Mikdad bəyan edib.

Nazir müavini əlavə edib ki, həmin qüvvələrin ölkə ərazisində qalması Suriyanın suverenliyinin qorunması üçün vacibdir. O deyib: "Biz heç kəsə bu məsələni gündəmə belə gətirməsinə icazə vermirik. Bunu tələb edənlər Rusiya istisna olmaqla hazırda ölkənin müəyyən yerlərində varlığını qoruyan terrorçuları dəstəkləyənlərdir".

Diplomat bu illər ərzində Suriya hökumətinə və xalqına dəstək verdiyi üçün Rusiya, İran və "Hizbullah"a xüsusi təşəkkürünü bildirib və bu qüvvələri ölkəyə məhz rəsmi Dəməşqin dəvət etdiyini vurğulayıb. "ABŞ, Fransa, Türkiyə və bir neçə digər ölkənin hərbi kontingenti bizim ölkəmizə təcavüz edib, onlar işğalçıdır və terrorçuları dəstəkləyirlər", - deyə Feysal Mikdad qeyd edib.

Donald Trampın ABŞ hərbçilərini Suriya ərazisindən çıxaracağı və yerinə bu ölkədə "Ərəb Qüvvələri" adı altında hərbi kontingent yaradacağı ilə bağlı açıqlamalara toxunan Feysal Mikdad bu planın bölgədə dəhşətli müharibəyə səbəb olacağını bildirib. Diplomet deyib: "Vaşinqton ərəb ölkələri ilə Dəməşqi və onun müttəfiqlərini üz-üzə qoymaq niyyəti güdür. Donald Trampın bəyanatından sonra isə Səudiyyə Ərəbistanının xarici işlər naziri Qətərin Suriyaya mütləq ordu göndərməli olduğunu bildirib. O, əks təqdirdə Qətərin ABŞ-ın hərbi yardımından məhrum olacağını önə çəkir və bu baş verərsə, rəsmi Dohanı ölkədə hakimiyyət dəyişikliyi ilə hədələyir".

Feysal Mikdad son nəticədə ABŞ-ın ordusunu Suriyadan çıxaracağına inanmadığını dilə gətirib: "Əsas plan ərəb ölkələrindən əlavə maliyyə əldə etmək, ABŞ-ın boşalmaq üzrə olan büdcəsini bunun hesabına doldurmaq və ərəb ölkələrini yeni müharibələrə cəlb etmək üçündür. Ərəblər bir-birini öldürməməlidir".

### İRAQ PARLAMENTİNDƏ ŞİƏLƏRİN QƏLƏBƏSİNİ ABŞ TƏMİN EDİB



İraqda parlament seçkilərində qalib gəlmiş şiə lideri Müqtəda əs-Sədrin bəzi ABŞ-dan olan məsul şəxslərlə görüşdüyü məlum olub. "APA"nın Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, bu barədə Müqtəda əs-Sədrin rəhbərlik etdiyi təşkilatın siyasi büro üzvü Ziya Əsəd məlumat yayıb.

Bununla yanaşı, Ziya Əsəd qeyd edib ki, Müqtəda əs-Sədr seçkilərdən öncə bir neçə amerikalı diplomatla görüşüb və onların dəstəyini alıb.

Xatırladaq ki, İraqda 12 may tarixində keçirilən parlament seçkilərində Müqtəda əs-Sədrin dəstəklədiyi koalisiya məclisdə 329 mandat əldə edib və bununla da ölkədə lider qüvvəyə çevrilib.

Bunun ardından isə İraq türkmənləri etiraz aksiyalarına başlayıb və seçkiləri tanımadıqlarını bəyan ediblər.

### NEFTİN QİYMƏTİ 80 DOLLARI KEÇSƏ DƏ YENİDƏN UCUZLAŞDI



Birləşmiş Ştatların kommersiya neft ehtiyatlarının 1,3 milyon barrel azalması ehtimalı neftin qiymətinin bahalaşmasını ləngidib. "APA"nın məlumatına görə, ekspertlər ehtiyatların 1,56 milyon barrel azalacağını proqnozlaşdırsa da, Amerika Neft İnstitutu fərqli iddiadadır.

Ekspert ehtimallarının özünü doğrultmaması qiymətlərin cüzi də olsa, ucuzlaşmasına səbəb olub. Bundan başqa, Birləşmiş Ştatlarda benzin ehtiyatlarının artması da qiymətlərə mənfi təsir göstərən amillərdəndir. Analitiklər benzin ehtiyatlarının 1,388 milyon barrel azalacağını proqnozlaşdırsa da, Amerika Neft İnstitutu həftə ərzində ehtiyatların 980 min barrel artdığı qənaətindədir.

Bununla yanaşı, birjalarda Venesuela və İrandan neft daşımalarının həcminin azalması ehtimalının qiymətlərə təsirinin zəif olacağı əhval-ruhiyyəsi hökm sürür. Treyderlər hesab edirlər ki, bazarda tələbatın artması digər ölkələrdə neft hasilatının artırılması hesabına kompensasiya ediləcək. Amerikalı ekspertlər həmçinin İrana qarşı neft embarqosunun təsirinin bundan əvvəlki sanksiyalar dövrü ilə müqayisədə az olacağı fikrindədirlər.

"Brent" markalı neftin qiyməti mayın 22 - də 80 dolları keçsə də, daha sonra qiymətlər 79,07 dollar həddinə enib. Qərbi Texas nefti isə 72 dollara satılır.

Hazırda diqqətlər ABŞ Energetika Nazirliyinin ölkənin neft ehtiyatlarının həcminə dair açıqlayacağı rəsmi hesabata yönəlib. Bu hesabat iki gün ərzində qiymətlərin formalaşmasında həlledici rol oynayacaq.

### HİNDİSTANDA ÖLÜMCÜL VİRUS YENİDƏN AŞKARLANIB



Hindistanın Kerala əyalətində 10 nəfərin ölümünə səbəb olan "Nipah" virusuna görə 100 nəfər də karantin altına alınıb. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Məlumata görə, yarasalar vasitəsilə meyvələrə keçən virusa yoluxanların 40 faizdən çoxu dünyasını dəyişir.

Xəstəliyin əlamətləri qızdırma, baş və boğaz ağrısı, yorğunluq və baş gicəllənməsidir. Həmçinin bu virus ağciyər və beyində su toplanmasına səbəb olur.

İlk dəfə Malaziyanın Nipah ərazisində aşkarlanan virusun bioloji silah olması iddiaları da mövcuddur.

Bildirilir ki, xurma, xurma bəhməzi kimi məhsullarda bu virusa yoluxma ehtimalı daha yüksəkdir. Yarasalar vasitəsilə meyvələrə keçən virus daha çox Sinqapur, Malaziya, Hindistan və Banqladeşdə qeydə alınıb.

Dünya Səhiyyə Təşkilatının məlumatına görə, bu xəstəliyi dərmanla sağaltmaq və ölüm təhlükəsini aradan qaldırmaq mümkün deyil.

Virusa yoluxan şəxsə erkən diaqnoz qoymaq, xəstəliyə müqavimət göstərə bilmək üçün lazımlı tədbirlərin həyata keçirilməsi insanları xilas edə bilər. Hazırda mütəxəssislər virusa qarşı peyvənd üzərində çalışır. ■

TƏKRAR

## “ASK Şüşə” MMC Şüşə zavodunda istifadə olunacaq xammalların satınalınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

Tender Lot 1 - Kvars qum, Lot 2 - Dolomit, Lot 3 - Kalsiləşdirilmiş Soda, Lot 4 - Çöl şpatı, Lot 5 - Kalsit tozu, Lot 6 - Taxta altlıq, Lot 7 - Karton, Lot 8 - Polietilen üzrə keçiriləcəkdir. Tenderdə iştirak etmək istəyənlər hər lot üzrə 100 (yüz) manat iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Qaradağ rayonu, Sahil qəsəbəsi, Salyan şosesi, 25 (əlaqələndiri şəxs: Esmira Həmidova, tel.: - +994125657190) əldə edə bilərlər.

*Bankın adı: “Azərbaycan Beynəlxalq Bankı”nın Müştəri Xidməti Departamenti*
*Swift Code: İBAZAZ2X*
*Müxbir hesabı:*
*AZ03NABZ01350100000000002944*
*Kod: 805250*
*Bank VÖEN: 9900001881*
*Alan: ASK Şüşə MMC*
*Alanın hesabı:*
*AZ91İBAZ40040019446097638120*
*VÖEN: 1305408641*

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün ərizə;*
*- iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- iddiaçının tam adı, ünvanı, hüquqi statusunu təsdiq edən sənəd (surəti) və bank rekvizitləri;*
*- tender təklifinin ən azı 1 (bir) faizi həcmində bank təminatını təsdiq edən sənəd (bank təminatı zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında arayış;*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməmiş, vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*

İddiaçının tender təklifindəki qiymət xidmətlərin qiymət dəyərindən başqa, nəqliyyat, vergi, sığorta və digər xərclər nəzərə alınmaqla göstərilməlidir.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 27 iyun 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş və ikiqat zərflərdə 04 iyul 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, Qaradağ rayonu, Sahil qəsəbəsi, Salyan şosesi, 25 təqdim etməlidirlər.

Göstərilən vaxtlardan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 05 iyul 2018-ci il saat 11:00 Bakı şəhəri, Qaradağ rayonu, Sahil qəsəbəsi, Salyan şosesi, 25 ünvanda açılacaqdır.

Tenderin keçirilməsi ilə bağlı əlavə məlumat əldə etmək üçün “ASK Şüşə” MMC-nin əməkdaşı Esmira Həmidova (tel.: +994125657190) əlaqə saxlamaq mümkündür.

**Tender Komissiyası.**

## AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİ İNZİBATİ BİNADA TƏMİR İŞLƏRİNİN SATINALINMASI MƏQSƏDİLƏ

TƏKRAR

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 (bir) Lot üzrə keçirilir.**

**LOT-1.** Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati binasında təmir işlərinin satınalınması

İşlərin (malların və ya xidmətlərin) təchiz olunma müddəti-2018-ci il ərzində

Tender iştirakçıları öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə yazılı surətdə təqdim etməlidirlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına və texniki göstəricilərə malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yusif Səfərov 14, 1193-cü məhəllə, Azərbaycan Respublikası Ali Məhkəməsinin Maliyyə-təsərrüfat şöbəsindən (Əlaqələndirici şəxs: Rzayeva Günel Əli qızı, telefon: 496-58-12) ala bilərlər.

**LOT-1. 250 manat**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*Bank adı: Azərbaycan Respublikası Maliyyə Nazirliyi Dövlət Xəzinədarlıq Agentliyinin 4 saylı Xəzinə İdarəsi*
*Kodu: 210005*
*VÖEN: 2001462101*
*Müxbir hesab AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T.BİK: CTREAZ 22*
*Azərbaycan Respublikası Ali Məhkəməsi*
*Hesab № AZ85CTRE00000000000003027901*
*VÖEN: 1300189391*
*Büdcə təsnifatının kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərfin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmaması barədə vergi orqanı tərəfindən verilmiş arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank arayışı;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin surəti, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları*
*-Digər sənədlər: İddiaçının ixtisasına dair məlumatlar.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında”Qanunun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 14.06.2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 28.06.2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, Yusif Səfərov 14, 1193-cü məhəllə, Azərbaycan Respublikası Ali Məhkəməsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri Azərbaycan Respublikası Ali Məhkəməsində 29.06.2018-ci il tarixdə saat 11:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri komissiyanın iclasında iştirak edə bilərlər.




## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Yevlax rayon şöbəsinin 17 aprel 2018-ci il tarixində Şöbənin inzibati binasında yerləşən regional arxiv üçün mebel avadanlıqlarının satınalınmasına dair açıq tender proseduru ləğv olunmuşdur.

## ELAN

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 18.05.2018-ci il tarixli 301/Ü saylı Əmri ilə “Azəryaşlandşaft” ASC-nin Kür-Araz Boyu və Digər Yaşayış Məntəqələrində İstifadə Olunan İçməli Suyun Ekoloji Standartlarına Nəzarət və Təminat Mərkəzi ləğv edilmiş və ləğvetmə komissiyası yaradılmışdır. Ləğv olunmuş “Azəryaşlandşaft” ASC-nin Kür-Araz Boyu və Digər Yaşayış Məntəqələrində İstifadə Olunan İçməli Suyun Ekoloji Standartlarına Nəzarət və Təminat Mərkəzi kreditor borcları ilə əlaqədar iddialar 2(iki) ay müddətində ləğvetmə komissiyasına təqdim edilməlidir. Göstərilən müddətdən sonra iddialara baxılmayacaqdır.

**Ünvan:** *H.Əliyev pr. 10.*

**Tel.:** *055 331 37 27.*

**Ləğvetmə Komissiyası.**

## Xaçmaz Rayon İcra Hakimiyyəti

### 12 küçəsində yenidənqurma işlərinin görülməsinə dair “Təkliflər sorğusu” elan edir

1. Təkliflər 30 may 2018-ci il tarixdə saat 16:00-dək qəbul edilir.

**Ünvan:** *AZ 2700 Xaçmaz şəhəri, H.Z.Tağıyev küçəsi 10.*

**Tel.:** *023-325-53-36*

*050-323-64-79.*

## BİLDİRİŞ

**Balakən Rayon İcra Hakimiyyəti başçısının Şəhər İƏD üzrə Nümayəndəliyi abadlaşdırma xidmətlərinin satınalmasına dair 18.04.2018-ci il tarixdə keçirdiyi tenderdə yetər sayda iddiaçı iştirak etmədiyi üçün 24.05.2018-ci il tarixdən tenderin müddəti 12.06.2018-ci il tarixə qədər uzadılmışdır. Tender zərflərinin açılışı 13.06.218-ci il tarixdə saat 16.00-da həyata keçiriləcək.**

**Tender Komissiyası.**

TƏKRAR

## AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ YANINDA BAŞ DÖVLƏT TEXNİKİ NƏZARƏT XİDMƏTİ

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot 1** - Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Baş Dövlət Texniki Nəzarət Xidməti işçilərinin xüsusi geyim forması, fərqlənmə nişanlarının təsvirləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu AZ1106, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi 7A (Əlaqələndirici şəxs: Məmmədova Sona, telefon: (+994 12) 5627423) ünvanından ala bilərlər.

**İştirak haqqı**

**Lot 1 - 450 manat**

*Hesab: AZ95CTRE00000000000002187701*
*VÖEN: 1700221271*
*Bank: Dövlət Xəzinədarlığı Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*M/H: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T: CTREAZ22*
*Büdcə təsnifatının kodu 142340*
*Büdcə səviyyə kodu 7*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
10. Digər sənədlər: Tenderdə iştirak etmək üçün iştirakçı aşağıda göstərilən sənədləri təqdim etməlidir: - Tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə); - Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi; - Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır); - Tender təklifinin 2 %-i həcmində təminat (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır); - İştirakçının Azərbaycan Respublikasında vergilərə, digər icbari ödənişlərə dair yerinə yetirilməmiş və vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış; - İştirakçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı; İştirakçının ixtisas göstəricilərinə dair sənədlər; - İştirakçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya dövlət reyestrindən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri; - İştirakçının bank rekvizitləri barədə məlumat; - İştirakçının rəhbərinin kimliyini və vəzifəyə təyin olunmasını təsdiq edən sənədlərin surəti; Tenderin əsas şərtlər toplusunda iştirakçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 13.06.2018-ci il tarixinə saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 27.06.2018-ci il tarixinə saat 18:00-a qədər AZ1106, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi 7A ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 28.06.2018-ci il tarixində saat 15:00-da AZ1106, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi 7A ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

TƏKRAR

## “Bakı Metropoliteni” QSC müxtəlif növ mebellərin satınalınması üzrə

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 20-dən, (Əlaqələndirici şəxs: İlqar Qasımov telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. “Bakı Metropoliteni” QSC üçün müxtəlif növ mebellərin satınalınması**

**İştirak haqqı - 200 manat**

*Hesabın adı: BAKI METROPOLİTENİ QSC*
*Hesab nömrəsi (İBAN):*
*AZ98AZRT38050019440010268002 AZN*
*VÖEN 1402871431*
*Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)*
*Kod: 501361*
*VÖEN: 9900006111*
*Müxbir hesabı:*
*AZ02NABZ01350100000000022944*
*SWİFT BİK: AZRTAZ22*

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 12 iyun 2018-cı il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 25 iyun 2018-ci il saat 18:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 20, ünvanına “İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri” şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 27 iyun 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**“BAKI METROPOLİTENİ” QSC TENDER KOMİSSİYASI.**

## Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi

## AÇIQ TENDER ELAN EDİR

**Tender 2 (iki) lot üzrə keçiriləcəkdir.**

**LOT-1.** Sosial-mədəni və məişət təyinatlı obyektlərin əsaslı təmiri

**LOT-2.** Kompüterlərə və ofis avadanlıqlarına servis xidməti

Tender iştirakçıları “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq, yuxarıda göstərilən hər bir LOT üzrə öz tender təkliflərini möhürlənmiş, imzalanmış və ikiqat bağlamada yazılı sürətdə təqdim etməlidirlər.

Təkliflərin qitmətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: - aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, iddiaçının bu sahədə səriştəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Maraqlananlar tenderlə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Hikmət Abdullayev.**

**Tel.: 012-562-94-21**

**Ünvan: AZ 1106, Bakı şəhəri, Z.Bünyadov pr. 3**

Maraqlananlar Azərbaycan dilində tərtib edilmiş əsas şərtlər toplusunu hər bir LOT üzrə 200 manat məbləğində iştirak haqqını ödədikdən sonra yuxarıda göstərilən ünvanda ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*Təşkilatın adı : Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi*
*VÖEN: 1000469951*
*Bank rekvizitləri: Dövlət Xəzinədarlığı Agentliyi*
*Hesab №-si: İBAN: AZ66CTRE00000000000002447601*
*Kod: 210005*
*VÖEN: 1401555071*
*Müxbir Hesab: AZ41NABZ01360100000000003944*
*SWİFT BİK: CTREAZ22*
*Büdcə səviyyəsinin kodu: 7*
*Büdcə təsnifatının kodu: 142340*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı gündən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən sonra azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*- iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*- müqaviləni yerinə yetirmək üçün tender iştirakçılarının lazımi texniki imkanları haqqında arayış;*
*- əsas şərtlər toplusunda nəzərdə tutulan digər sənədlər.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) və iş qrafiklərini 04 iyul 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş və ikiqat zərfdə 13 iyul 2018-ci il tarixdə saat 17:00-a qədər təqdim etməlidirlər

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 16 iyul 2018-ci il tarixdə saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## Azərbaycan Dövlət Aqrar Universiteti

*kafedralarda boş olan aşağıdakı vəzifələri tutmaq üçün*

## MÜSABİQƏ ELAN EDİR

| | |
|---|---|
| Dillər | dosent, 1 yer |
| | müəllim, 2 yer |
| | müəllim, 0,75 yer |
| Aqrar sahənin iqtisadiyyatı | assistent, 1 yer |

Mövcud Əsasnamənin tələblərinə uyğun sənədləri elan qəzetdə dərc olunduğu gündən başlayaraq 30 gün ərzində rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim etmək lazımdır:

**Gəncə şəhəri, Atatürk prospekti 450, ADAU, tel.: 256-00-56, 256-89-57.**

**REKTORLUQ.**

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi 2018-ci il ərzində Komitənin aparatı üçün tələb olunan inventarların satınalınması üzrə “kotirovkalar sorğusu” keçirir.

Kotirovkalar sorğusu üzrə ödənişlər köçürmə yolu ilə həyata keçiriləcəkdir. Satınalma prosedurunda iştirak etmək istəyən iddiaçılar öz təkliflərində vergi və rüsumları nəzərə almalıdırlar.

Keçirilən satınalma proseduru ilə bağlı məlumat almaq üçün 30.05.2018-ci il tarixdə saat 18.00-a kimi (012) 595-89-27, dax.(113) nömrəli telefona zəng edərək əlaqə saxlaya bilərlər. Əlaqələndirici şəxs - T.Əliyev.

## “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti

## BİLDİRİŞ

Məlumat Hesablama Mərkəzi tərəfindən İKT avadanlıqlarının satın alınması ilə əlaqədar 24 aprel 2018-ci il tarixdə elan olunan açıq tenderdə iştirak etmək üçün sənədlərin təqdim edilməsi müddəti artırılaraq 01 iyun 2018-ci il saat 18.00-dək, tender təklifi və bank zəmanətinin təqdim edilməsi 07 iyun 2018-ci il saat 18.00-dək nəzərdə tutulmuşdur. İddiaçıların təklif zərfləri 08 iyun 2018-ci il tarixdə, saat 11.00-da açılacaqdır.

**Əlaqələndirici şəxs: Nilufər İsmayılova,**
**tel.: (+99412) 499-66-17.**

**TENDER KOMİSSİYASI.**

Mikayılov Mahir Həzi oğlunun adına 28.11.1996-cı ildə verilmiş Bakı şəhəri Goradil kəndi 1016 saylı bağ evinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Qusar rayonu, Çiləgir kənd sakini Ağabalayev Seyidəhməd Mehti oğlunun adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN 153, kod 30121028) itdiyi üçün etibarsız sayılır.

Qusar rayonu, Qayakənd kənd sakini Fərmanov Şahin Noyabr oğlunun adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN 0059, kod 30101018) itdiyi üçün etibarsız sayılır.

Quba rayonu, Digah kənd sakini Atluxanov Eldar Ziyadxan oğlunun adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN 262, kod 30307038) itidiyi üçün etibarsız sayılır.

Quba rayonu, Digah kənd sakini Atluxanov Ziyadxan Eldar oğlunun adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN 261, kod 30307038) itdiyi üçün etibarsız sayılır.

Pirverdiyeva Məryəm Aslan qızının adına YN:127 A (kod 50414018) saylı torpağın mülkiyyətinə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Kanjani Pradeep Sobhraja adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən qeyri-yaşayışa verilən MH 0105167 Çıxarış itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəh., Nəsimi r-nu, Əlövsət Quliyev-133).

Lənkəran rayon aqrar islahat komissiyasının 30 may 1998-ci il tarixli 10 nömrəli qərarı ilə Lənkəran şəhər sakini İslamov Әləddin Mirzəxan oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 2129 A; KOD 80201002) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 3 mart 1998-ci il tarixli 12 nömrəli qərarı ilə Şahağac kənd sakini Quliyev Rauf Əlipaşa oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 177 A; KOD 80112018) itdiyi üçün etibarsız sayılır.

## Bakı Dövlət Universitetinin Tender komissiyasının

## BİLDİRİŞİ

Bakı Dövlət Universitetinin “Respublika” qəzetində 17.05.2018-ci il tarixində elan olunmuş kotirovka prosedurunda “Grandproje” MMC şirkəti qalib gəlmişdir.

**Tender Komissiyası.**

## M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası 2018-ci il üçün

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1. Mətbəə xərcləri**

Kotirovka sorğusunda iştirak etmək üçün sənədləri 29.05.2018-ci il tarixinədək qəbul olunur.

Maraqlanan təşkilatlar 012-498-80-64 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Ünvan:** *Bakı şəh., Səbail ray., Xəqani küç.-29.*

**Tender Komissiyası.**

## BİLDİRİŞ

“AzerGold” QSC tərəfindən “Nəcib metal külçələrinin beynəlxalq istiqamətlərdə daşınması xidmətinin satın alınması” predmeti üzrə 03 fevral 2018-ci il tarixində elan edilmiş, iştirak üçün heç bir müraciət qeydə alınmadığı üçün sonradan 08.03.2018-ci il, 10.04.2018-ci il və 01.05.2018-ci il tarixlərində sənəd qəbulu müddətləri uzadılmış açıq tender “Dövlət satınalmaları haqqında” Qanunun 11.1. maddəsinə əsasən ləğv (davamından imtina) edilir.

**Tender Komissiyası.**

**Baş redaktor Teymur ƏHMƏDOV**

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail:** resp@azdata.net
www.respublica-news.az

*“Respublika” qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023

Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Ataş CƏBRAYILOV**

● **Çapa imzalanmışdır**
**23.05.2018**